

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir




SƏS

№ 130 (6813)

26 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

# Sözü imzası qədər qüvvətli olan LİDER!




*Prezident İlham Əliyev:
"Əziz Şuşa, biz səni dirçəldəcəyik"*

# Media Forum Ermənistan dalğasında




## Antimilli şuranın "bəyanat"ını kim hazırlayıb?



6

## Ekspert: "Ermənistana Qərbdən silah tədarükü 2003-cü ildən başlayıb və davam edir"



11

## Hansı hallarda övladlara mirasdan pay düşmür?



6



## Həkim açıqladı: Kompyuter arxasında çox işləyənlər, diqqətli olun!

16

## Dörd divar nə üçündür?..



11

# Azərbaycan-Çin strateji əməkdaşlığında yeni hədəflər

## Prezident İlham Əliyev: "Bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var"



Dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsipini rəhbər tutan Azərbaycan Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir. Çin və Azərbaycan arasında da əməkdaşlıq durmadan inkişaf edir. Ölkələr arasında dostluq əlaqələri qədim tarixi köklərə malikdir. Çin və Azərbaycan arasında diplomatik əlaqələrin yaradılması hər iki ölkənin tarixində yeni vacib bir səhifə açıb. Dövlətlərarası möhkəm diplomatik və mədəni əlaqələr mövcuddur. İki ölkə arasında rəsmi şəxslərinin qarşılıqlı səfərləri diplomatik əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edib. 1994-cü il 7-10 mart tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olmuşdur. Səfər zamanı iki dövlət arasında 8 müqavilə imzalanıb. 1998-ci il sentyabrın 8-də Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük ipək yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfrans da öz növbəsində iki ölkə arasında münasibətlərin daha da istiləşməsinə səbəb olub.

Əlbəttə ki, Ulu Öndər Heydər Əliyev Çin-Azərbaycan dostluğunun təməlini qoyan Böyük Şəxsiyyət şəxsiyyətdir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verərkən bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb: "Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub". Dövlət başçımız onu da qeyd edib ki, Çin Heydər Əliyev üçün tanımadığı ölkə deyildi. O, müxtəlif dövrlərdə Çinin inkişafı ilə bağlı yaxşı məlumatlı idi: "Vaxtilə O, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb və Çin nümayəndələri ilə bir çox görüşlər keçirib. O, ölkənizin dinamikası və inkişafından yaxşı xəbərdar idi. Müstəqil Azərbaycanın Prezidenti seçiləndən sonra isə onun əsas xarici siyasət prioritetlərindən biri Çinlə ikitərəfli münasibətlər qurmaq idi. Xatırlayıram ki, o, Çinə rəsmi səfərdən böyük təəssüratla qayıtmışdı. Heydər Əliyev Çinin artmaqda olan gücünü, həmrəy cəmiyyətini və aydın məqsədlərə malik ölkəni gördü - bunlar təxminən 30 il öncə baş vermişdi".

### "BİR KƏMƏR, BİR YOL" TƏŞƏBBÜSÜ DOSTLUĞA ƏLAVƏ TƏKAN VƏ TÖHFƏDİR

Azərbaycanın coğrafi xüsusiyyətləri, Avropa və Asiyanın ən iri iqtisadi inkişaf etmiş ölkələri arasında yerləşməsi beynəlxalq nəqliyyat şəbəkəsində iştirak üçün real zəmin yaradır. Əsas istehsalçı və ən böyük istehlakçı regionları arasında yük axınlarının artımını nəzərə alaraq, Azərbaycanın nəqliyyat siyasətinin əsas məqsədi nəqliyyat infrastrukturunun gələcək inkişafı olaraq qalır. Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və əlverişli geostrateji mövqeyə malik Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı son illərdə görülən işlər xüsusi diqqətə layiqdir. Xüsusilə, Şərq-Qərb nəqliyyat dəhlizi Çin və Avropa arasında ən qısa marşrutdur, tranzit və yüklərin daşınması baxımından səmərəlidir

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunu da qeyd etməliyik. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. İki ölkə arasında nəqliyyat-logistika, infrastruktur sahələrində də sıx faydalı əməkdaşlıqlar mövcuddur. Xüsusilə də, Asiya və Avropanı birləşdirən qlobal dəhlizin - "Bir kəmər - bir yol" nəqliyyat marşrutunun gerçəkləşməsini ilk dəstəkləyən və siyasi dəstək verən ölkələrdən biri Azərbaycan olub.

Cənab Prezidentin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb və sonrakı dövrlərdə Azərbaycan bu dəhlizin strateji önəminə xüsusi diqqət ayırıb.

Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "İpək Yolu İqtisadi Kəməri"nin tərkib hissəsi kimi mühüm yer tutur və ölkəmiz bu nəqliyyat marşrutları ilə malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur. "Bir kəmər, bir yol" təşəbbüsü dostluğa əlavə təkan və töhfə verəcək, - deyən Prezident onu da bildirib ki, qarşılıqlı fəaliyyət yaranacaq, çünki qədim İpək Yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir.

### "İNKİŞAFIMIZIN HƏDƏFLƏRİNDƏN BİRİ REGİONAL BAĞLANTI MƏRKƏZİNƏ ÇEVRİLMƏK İDİ"

Postmüharibə dövründə Azərbaycanın yürütdüyü xarici siyasət, regionda həyata keçirilən infrastruktur layihələrin icrası ölkəmizi regionun regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevirir. Yaranan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin iştirakçısı qismində Azərbaycanın əlverişli tranzit imkanlarından geniş istifadə edilməsi üçün Azərbaycan regiondakı geosiyasi mövqeyinə mühüm təsir göstərən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı mühüm addımlar atıb. Xüsusilə. Şimal-Cənub nəqliyyat dəhlizi əhəmiyyətli nəqliyyat dəhlizi olmaqla yanaşı, iştirakçılara üstünlük faizi vəd edir. "İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir.

Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi, - deyə Prezident müsahibəsində diqqətə çəkib. "Bir kəmər, bir yol" layihəsinə qoşularkən bizim artıq hazır infrastrukturumuz var idi, - deyən Prezident indi bizim, sadəcə, texniki imkanları artırmaqla məşğul olduğumuzu bildirib: "Məsələn, biz ticarət limanımızı genişləndiririk, çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bizim dəniz ticarət limanımız bir neçə il əvvəl açıldı. Onun ovaxtkı yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə biz onun imkanlarını 25 milyon tona qədər çatdırırıq. Biz Xəzər dənizində daha çox gəmi tikirik. Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğumuza baxmayaraq, biz yeni tanker və yük gəmiləri inşa edirik ki, daha çox yük daşıya bilək. İndi biz gəmiqayırma zavodumuzu genişləndirməyi planlaşdırırıq ki, ildə 6-8 deyil, 10-20 gəmi inşa edə bilək. Həm Azərbaycanda, həm də Xəzər dənizində buna tələbat artmaqdadır".

Azərbaycan Respublikasının "Bir kəmər, bir yol" strategiyası üçün vacib ölkə olduğunu Çin rəsmiləri hər zaman qeyd edir. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıb. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər.

Müsahibəsində iqtisadi əməkdaşlıq məsələlərində Azərbaycanla Çinin mövqelərinin üst-üstə düşdüyünü bildirən Cənab Prezident diqqətə çatdırıb ki, biz qarşılıqlı ticarətin həcminin artdığını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Ölkələrimizi gələcəkdə daha da birləşdirəcək yeni nəqliyyat marşrutlarının olduğunu bildirən dövlətimizin başçısı deyib ki, bu da regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaq. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir.

Qeyd edək ki, Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər. Siyasi əlaqələrlə yanaşı hər iki şərq ölkəsini mədəni münasibətlər də bağlayır. 2001-ci ildə Çinin Cizian əyalətinin Çücou şəhəri və Azərbaycanın Sumqayıt şəhəri qardaşlaşıb.

### "BİZ HƏR ZAMAN BEYNƏLXALQ HÜQUQUN NORMA VƏ PRİNSİPLƏRİNİ DƏSTƏKLƏYİRİK"

"Biz Çinin ərazi bütövlüyünü, Vahid Çin və Çinin birləşməsi siyasətini hər zaman dəstəkləmişik və dəstəkləməkdə davam edirik. Bu siyasət tamamilə dəyişməz olaraq qalır və heç zaman da dəyişməyəcək", - deyən dövlətimizin başçısı qeyd edib: "Birincisi, bu, onunla bağlıdır ki, Çin bizim üçün dost ölkədir. İkincisi, biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir". Xalqların öz müqəddəratının təyin edilməsinin hər hansı ölkənin ərazi bütövlüyü ilə ziddiyyət təşkil etməli olmadığını diqqətə çatdıran Prezident bildirib ki, bu, beynəlxalq hüququn fundamental prinsipidir.

Dünyanın ən böyük iqtisadi cəhətdən qüdrətli dövlətlərindən biri olan Çinlə Azərbaycanın əməkdaşlığı hər iki ölkənin xalqlarının mənafeylərinə tamamilə uyğun gəlir. Prezidentin vurğuladığı kimi, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ifadə ikitərəfli əlaqələrin geniş gündəliyini və əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir: "Beləliklə, xarici siyasət prioritetlərinə və gündəliyə gəldikdə, mən Azərbaycanın və Çinin siyasətləri arasında və istənilən digər istiqamətdə bir çox oxşarlıqlar görürəm. Son zamanlar bizim münasibətlərimiz daha da intensivləşib və əlbəttə, mənim cənab Si Cinpinlə görüşlərim istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda, daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır. Bu səbəbdən, uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır".

***Zümrüd BAYRAMOVA***

# Media Forum Ermənistan dalğasında

## Prezident İlham Əliyevin Şuşadan verdiyi mesajlara Paşinyandan etiraf dolu cavab

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Qlobal Media Forumu çərçivəsində keçirilən tədbirdə jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlər dünya mediasında, o cümlədən Ermənistan ictimaiyyətində geniş müzakirə olunmaqdadır. İlham Əliyevin Ermənistan və Qarabağdakı ermənilərin gələcək taleyi ilə bağlı dedikləri ermənilər arasında gərginliyə, çaxnaşmaya səbəb olub. Azərbaycan Prezidenti milli maraqlardan çıxış edərək ölkəmizin bu və ya digər məsələlər üzrə mövqeyini lazımi ünvanlara bir daha çatdırıb. Nəzərə alsaq ki, Media Forumunda nüfuzlu agentlik, qəzet və televiziyaların əməkdaşları təmsil olunurdu, burada deyilən fikirlər bir andaca bütün dünyaya yayıldı. Təbii ki, reaksiyalar da gözlənilən idi.

Prezidentin Şuşadakı çıxışına reaksiya Ermənistandan da gəlib. Bu ölkənin baş naziri Nikol Paşinyan İrəvanda əsasən erməni jurnalistləri bir araya toplayıb və fikirlərini də Azərbaycan Prezidenti İlham Əliyevin tezisləri üzərində qurub.

Qeyd edək ki, bu gün Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşü keçirilib. Rusiya XİN görüş zamanı Bakı və İrəvan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların aparıldığını bildirib. Məlumata əsasən, həmçinin regionda kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və başqa mövzular müzakirə edilib. XİN başçıları arasında üçtərəfli görüşlə yanaşı, Sergey Lavrovun Ceyhun Bayramov və Ararat Mirzoyanla ayrıca iki tərəfli görüşü olub. İkitərəfli görüşlərdə Rusiya-Azərbaycan, Rusiya-Ermənistan arasında iqtisadi, ticari və siyasi mövzular, o cümlədən gündəlikdə olan aktual məsələlərin müzakirə edilib.



### Nikoldan Ağdam "dəhliz"i açıqlaması

Azərbaycan tərəfindən irəli sürülmüş və beynəlxalq aktorlar, o cümlədən, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən müsbət qarşılanmış Qarabağ bölgəsinin erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan istifadə edilməsi təklifindən Ermənistan tərəfinin imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının reallığı əks etdirmədiyini göstərir. Bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan "Le Monde" qəzetinə müsahibəsində səsləndirdiyi fikri şərh edən zaman Azərbaycan XİN bildirib. Qeyd edilib ki, bu həmçinin Ermənistanın əsl niyyətinin vəziyyətdən siyasi şantaj məqsədilə sui-istifadə etmək olduğunu nümayiş etdirir. Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətlərini davam etdirmək məqsədi güdür.

İrəvanda keçirilən brifinqdə isə Paşinyan bildirib ki, Qarabağ ermənilərinin ehtiyaclarının Ağdamdan qarşılanması məsələsini müzakirə etməmişəm, çünki bunun üçün səlahiyyətim yoxdur: "Ermənistan Qarabağ ermənilərinin taleyini həll edə bilməz, bunun üçün səlahiyyətimiz yoxdur. Xankəndidəki ermənilər özləri Bakı ilə dialoqa getməlidirlər".

Paşinyan jurnalistlərin israrla verdiyi "Qarabağ Azərbaycan-Ermənistan arasındakı sülh prosesində danışıqlara salına bilərmi" sualından yayınaraq, Qarabağ ermənilərinin özlərinin Bakı ilə danışmasının daha doğru olduğunu deyib. Baş nazir əlavə edib ki, Bakı ilə Xankəndidəki ermənilər arasında dialoq səmərəli nəticə verdikdə, Qarabağda heç bir təhlükə qalmadıqda, Rusiya sülhməramlıları bölgədən çıxarılacaq: "Sülhməramlılar üçtərəfli bəyanata əsasən Rusiya Federasiyasının Federal Məclisinin müvafiq qərarı ilə Qarabağa yerləşdiriliblər. Onların regiondakı mövcudluğunun əsas məqsədi Qarabağdakı erməniləri qorumaqdır. Onlar regiondan çıxarılanda, artıq təhlükə yoxdur deməkdir". Paşinyanın dediklərindən belə anlaşılır ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatda "5 illik müddət" məsələsi ya sənəddə qeyd olunmayıb, ya da onun başqa mənası var. Halbuki həmin sənəddə açıq şəkildə qeyd olunub ki, sülhməramlılar 5 il müddətində bölgədə, daha doğrusu Qarabağda qalacaqlar. 5 ilin tamam olmasına 6 ay qalanda tərəflərdən biri etiraz etməsə müqavilənin müddəti növbəti 5 il üçün də keçərli olacaq. Paşinyan isə Bəyanatın maddəsini ermənisayağı təhrif edərək sülhməramlıların Qarabağdakı ermənilər üçün təhlükə sovuşduqdan sonra ərazini tərk edəcəklərini bildirir. Bu isə yanlış yanaşmadır, öz vətəndaşlarını aldatmaqdır. Belə çıxır ki, Qarabağdakı ermənilər 50 il bundan sonra da desələr ki, Azərbaycan hələ də bizə təhlükə yaradır, rus ordusu burada qalmaqda davam edəcək. Təbii ki, bütün bunlar yalnış yanaşma, ictimaiyyəti aldatmaqdır.

Nikol Paşinyan bu gün keçirdiyi mətbuat konfransında həmçinin bir etirafda da bulunub. Deyib ki, mən heç vaxt Azərbaycanın Qarabağdakı ermənilərin hüquqlarının müdafiəsi və təhlükəsizliyinin təminatı ilə bağlı müzakirələrdən qaçdığını görməmişəm. O, XİN başçıları arasında keçiriləcək üçtərəfli görüşdən də söz açıb: "Qarabağdakı insanların Bakı ilə dialoqdan niyə yayınmağa çalışdığını anlamıram. Oradakı ermənilər arasında bu fikri dəstəkləyən kifayət qədər insan var. Bu gün Moskvada XİN başçıları arasında keçirilən görüşdən də müəyyən gözləntilərim var. Ümid edirəm ki, onlar sülh müqaviləsinin daha bir neçə maddəsi üzrə razılıq əldə edə biləcəklər".

Paşinyan ölkəsinin gələcəyindən hələ də narahat olduğunu gizlətməyib. Bildirib ki, hazırkı şəraitdə Ermənistanın taleyinin necə olacağı qeyri-müəyyəndir: "Regionda sabitliyin əsas amillərindən hesab edilən dünya nizamı artıq yoxdur, yeni nizamın necə olacağı isə bilinmir. Ukrayna müharibəsinə görə regionumuza geosiyasi təsirlər azalıb, Şərq-Qərb çərçivələri bizim üçün kifayət qədər işləmir. Hazırda Ermənistan üçün qarşıdurmanın yaşanmayacağı bir siyasət həyata keçirilməlidir. Biz qonşu ölkələrlə ən ciddi məsələlərin belə əməkdaşlıq səviyyəsində həllinə çalışırıq. Bu baxımdan Azərbaycanla sülh müqaviləsinin imzalanması, Türkiyə ilə münasibətlərin tənzimlənməsi, İran və Gürcüstanla əlaqələrin inkişafı zəruridir".




### Bu arada...

Prezident İlham Əliyevin xarici işlər nazirinin müavini Xələf Xələfovu özünün xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin etməsi ermənilərdə qorxuya səbəb olub. Xəbər verilir ki, Ermənistan mediası Azərbaycan Prezidentinin bu təyinatının Qarabağ siyasəti ilə bağlı olduğunu yazır. "Hraparak" nəşri iddia edir ki, Qarabağdakı erməni əhalisinin Azərbaycana reinteqrasiyasından sonra Xələf Xələfov Prezident İlham Əliyevin xüsusi nümayəndəsi kimi Xankəndiyə rəhbərlik edəcək: "Xələfov Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması prosesini incəliklərinə qədər bilir. İlham Əliyev Qarabağdakı erməni əhalisinin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiyasını elan edib. İstisna deyil ki, Xələfovun əsas fəaliyyət arenası da Qarabağ olacaq".

Ermənistan mediasının bu cür iddialarla çıxış etməsi Azərbaycanın Qarabağ siyasətindən qorxuya düşməsindən qaynaqlanır. Çünki rəsmi Bakı ermənilərin yaşadığı ərazilərimizdə mərkəzi hakimiyyətin bərpasına doğru addım-addım yaxınlaşır. Bunu ermənilər də anlayırlar və Azərbaycanda istənilən hadisəni, yaxud təyinatı bu siyasətin tərkib hissəsi olaraq görürlər.

Xələf Xələfovun Prezidentin xüsusi tapşırıqlar üzrı nümayəndəsi kimi Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması prosesində iştirak edəcəyi isə sirr deyil. Xələfovun təcrübəsindən xüsusilə sərhədin delimitasiyası prosesində istifadə edilə bilər.

Separatçıların "sabiq deputatı" Vahram Atanesyan Azərbaycan Prezidenti İlham Əliyevin son çıxışına diqqət çəkərək bildirib ki, bu çıxışından Laçın yolundakı sərhəd-buraxılış məntəqəsinin quraşdırılmasının beynəlxalq aktorlarla razılaşdırıldığı açıq şəkildə anlaşılır. O, bu gedişlə Azərbaycanla Naxçıvan arasındakı dəhlizin də açılacağını deyib.

Münaqişədən sonrakı bir dövrdə Laçın yolu ilə Zəngəzur dəhlizi arasında bərabərlik qoyulan bəyanatların şahidi olurduq, amma zaman göstərdi ki, Azərbaycanın bu addımı situativ gedişdir və perspektivdə ümumilikdə Laçın yolunda dəhliz məntiqinin aradan qaldırılmasına hesablanıb. Artıq "Zəngəzur dəhlizi yoxdursa, Laçın dəhlizi də yoxdur" tezisi işləmir, onun əvəzinə, Azərbaycan "Laçın dəhlizi deyilən şey yoxdur, ora sadəcə yoldur, amma Zəngəzur dəhlizi də mütləq açılacaq" şəklində diktədici bəyanatları gündəmdə saxlayır. Laçın yolunun Ermənistanla sıfır nöqtəsində sərhəd-buraxılış məntəqəsinin quraşdırılmasından sonra erməni hərbi-siyasi elitasının olan-qalan ümidləri də puça çıxdı və artıq onlar Azərbaycanın Zəngəzur dəhlizi istiqamətində hansı şəkildə irəliləyişini həyəcanla izləyirlər. Laçındakı nəzarət-buraxılış məntəqəsi quraşdırılarkən Azərbaycanın kimdənsə razılıq almayıb, sadəcə olaraq Bakı bu addımı atdıqdan sonra aktorlara nəticələri qəbul etdirmək üçün prosesi başladıb.

Azərbaycanın bundan sonra Zəngəzur dəhlizinin açılması ilə bağlı həmləri diqqət mərkəzində olacaq, lakin buna qarşılıq olaraq İran regionda təhdid meyllərini yeni fazaya keçirə bilər. Dəhlizin kimin nəzarətində olması da maraqla izlənilir. Rusiya və Qərbin adı çəkilir, Çinin ambisiyaları da nəzərə çarpmaqdadır.

Bəli, vaxt keçdikcə özlərini regionda söz sahibi kimi təqdim edənlərin sırası da sıxlaşır. Amma zaman fərqli reallıqlar da yaradır. Bu gün regionda əsas söz sahibi Azərbaycandır. Şərti olaraq 6-lıq" adlandırılan region ölkələrinin məsələyə yalnız nizamlayıcı, sülhyaratma statusunda qoşula bilmək imkanları var. Dominantlıq isə Azərbaycana məxsusdur, çünki qalib ölkədir, dünyanın 3 nəhəng ölkəsinin 30 ilə etmədiyini, BMT TŞ-nin 4 qətnaməsini yerinə yetirən məhz Azərbaycandır.

***V.VƏLİYEV***




# Möhtəşəm tədbirlərin ünvanı Şuşadan dünyaya mesaj!

*Prezident İlham Əliyev Şuşa zirvəsində növbəti dəfə Azərbaycan reallıqlarını dünyaya nümayiş etdirdi*

Bəli, tarixi Zəfərimizin zirvəsi olan Şuşa işğaldan azad edildikdən sonra bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edib. Ancaq keçirilən növbəti tədbir isə ölkəmiz və Qarabağ bölgəsi üçün daha möhtəşəm - belə ki, iyulun 21-də mili mətbuatımızın 148-ci ildönümünü qeyd etdiyi gündə Azərbaycan mədəniyyətinin mərkəzi beşiyi olan Şuşa növbəti bir tarixi tədbirin məkanı oldu. Belə ki, iyulun 22-23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən qədim Şuşa qalasında "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Media Forumunun açılışı oldu. 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumunun, eləcə də 60 yerli media rəhbəri və nümayəndələrinin iştirak etdiyi Forumda Prezident İlham Əliyev bir daha dünyaya Azərbaycan reallıqlarını çatdırdı və regionda baş verən prosesləri dəyərləndirdi. Dövlət başçımız, həmçinin məclub Ermənistana, onunu havadarlarına və separatçı qüvvələrə növbəti xəbərdarlığını ünvanladı.

## ŞUŞA ŞƏHƏRİ BİZİM CƏSARƏTİMİZİN RƏMZİDİR

Bəli, bu günədək çoxsaylı beynəxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri indi də müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı mpedia, jurnalist təşkilptları rəhbərlərini, informasiya- kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləori bir araya topladı. Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirdi ki, Şuşa Qlobal Media Forumu bizim ölkəmiz və Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir: "Şuşa rəsmi olaraq Azərbaycanın Mədəniyyət Paytaxtıdır və bizim qələbəmizin rəmzidir. Şuşa, eyni zamanda, sülhün rəmzidir. Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı"."Şuşa şəhəri bizim cəsarətimizin rəmzidir",-deyən Azərbaycan Prezident Şuşada artıq bir neçə beynəlxalq tədbirin - "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin və digər tədbirlərin keçirildiyini vurğulayaraq deyib ki, işğal dövründə məqsədli şəkildə dağıdılmasına baxmayaraq, bu şəhər öz kimliyini qoruya bilib."Şuşa unikal, misilsiz məkandır",-deyən Prezident İlham Əliyev bildirib ki, Şuşada bütün işlər Baş plan əsasında aparılır. Bu şəhər (Şuşa - red.) qaya üzərində qurulub, qədim şəhərdir. Bu, həqiqətən də Qafqazın incisidir və Qarabağın tacıdır.Hazırda tarixi memarlıq abidələrinin bərpa olunduğunu diqqətə çatdıran dövlətimizin başçısı üç məscidin yenidən qurulduğunu da qeyd edib: "Əlbəttə, Şuşanın bərpası başlanılıb, bir müddət əvvəl Baş plan təsdiq edilib və indi artıq ilk yaşayış binasının inşası layihəsi başlanıb. Həmin layihələr çərçivəsində Şuşa sakinləri evlərinə qayıdacaqlar.Ümumiyyətlə, Baş plan çərçivəsində Şuşa şəhərinin bütün infrastrukturu, yeni yollar yaradılıb. Bu ilin sentyabr ayında biz 1000 şagird yerlik məktəbin açılışını edəcəyik. 90 çarpayılıq xəstəxana ilin sonuna qədər hazır olacaq. Şuşada bütün işlər Baş plan əsasında aparılır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

## "BİZ CƏNUBİ QAFQAZDA VƏZİYYƏTİ SABİTLƏŞDİRMƏLİYİK, DAYANIQLI SÜLHƏ NAİL OLMALIYIQ"

Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, təhlükəsizlik təmin edilməlidir. Gələcəkdə burada həm qlobal məsələlərdə, xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmlidir və vacibdir.

Ankaranın sabitləşdirici rol oynadığını vurğulayan dövlətimizin başçısı deyib: "Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir. Bu rol həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir". Dövlətimizin başçısı onu da bildirib ki, cəmiyyətimizdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir. Torpaqlarımızı azad edəndən sonra biz ölkəmizə qarşı potensial təhlükə görmürük. "Daxildə hər hansı bir təhlükə yoxdur, ölkə sabitdir, cəmiyyətdə həmrəyliyin səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir, ölkənin iqtisadi inkişafı olduqca təsirlidir" - deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın iqtisadiyyatı özünü təmin edir: "Biz öz resurslarımızla özümüzü təmin edirik və yaxşı idarəçilik həyata keçiririk". "Səmimi şəkildə deyə bilərəm ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə yeni bir nəfəs qazanmışdır", - deyən Prezident İlham Əliyev son zamanlar Qoşulmama Hərəkatının nüfuzunun və təsirinin tədricən deqradasiya etdiyini, praktiki olaraq Hərəkatın fəaliyyəti ilə bağlı müəyyən müzakirələrin aparıldığını vurğulayaraq bildirib: "İstənilən işdə olduğu kimi, biz bu işə də böyük məsuliyyətlə yanaşdıq və addım-addım institusional inkişaf istiqamətində işləməyə başladıq. Azərbaycanın sədrliyi yekdilliklə birillik uzadıldı. Amma faktiki olaraq bu, bir il yarımlıq uzadılma oldu. Bu, o deməkdir ki, bizim sədrliyimizə ehtiyac var və o, müsbət qarşılanıb".Azərbaycan Prezidenti çıxışı zamanı qeyd edib ki, Qoşulmama Hərəkatını konkret nəticələrlə zənginləşdirəcəyik: "Əlbəttə ki, səlahiyyətlərimizi (Qoşulmama Hərəkatına sədrliyi - red.) bir neçə aydan sonra Uqandaya ötürəndən sonra biz müəyyən bir zaman - Uqanda sədrlik etdiyi dövrdə üçlükdə olacağıq və fəal şəkildə cəhdlərin konsolidasiyası istiqamətində çalışacağıq". Dövlətimizin başçısı qeyd edib: "Qoşulmama Hərəkatını konkret nəticələrlə zənginləşdirəcəyik. COVID-19 dövründə biz liderlik nümayiş etdirdik. Belə ki, dünya ictimaiyyətinin diqqətini bu problemə cəlb etdik və Azərbaycan sədr olaraq fəal peyvənd millətçiliyinə qarşı çıxış etdi". "Biz hər hansı bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə möhtəşəm Zəfərimizi nümayiş etdirən Qarabağ müharibəsi bitən kimi biz dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. Bu gün Ordumuzun üç il bundan əvvəlki ordudan daha güclü olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Əlbəttə ki, buna ehtiyac var, o da bizim tariximizdən qaynaqlanır. Biz görürük ki, bu gün beynəlxalq hüququn normaları kobud şəkildə pozulur. Biz görürük ki, beynəlxalq hüquq selektiv tətbiq edilir, biz uzun illər bu yanaşmaya məruz qalmışıq". BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmalı olduğu ilə bağlı dörd qətnamə qəbul etdiyini xatırladan Prezident qeyd edib: "Ancaq o qətnamələrə riayət edilmədi və bu gün həmin o tendensiya davam edir. Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda, sülhün qarantiyası yalnız gücdür".

## ŞUŞA BƏYANNAMƏSİ BİZİM QARŞIMIZDA YENİ ÜFÜQLƏR AÇIR

Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında vurğulayıb ki, İkinci Qarabağ müharibəsindən Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətləri rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq.Dövlətimizin başçısı Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük nailiyyətdir, böyük sərvətdir. Həmin bəyannamə bizim qarşımızda yeni üfüqlər açır". Azərbaycan Prezidenti keçən ilin fevralında imzalanmış Bəyannamənin Rusiya ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi olmaqla, bu Bəyannamənin müstəqilliyin müxtəlif dövrlərində müxtəlif şəkildə təşəkkül tapan münasibətlərin bir forması olduğunu bildirdi. Əlaqələrin artıq yeni strateji mərhələyə qədəm qoyduğunu qeyd edən dövlətimizin başçısı onu da vurğuladı ki, hər iki ölkənin həyata keçirdiyi işlərin həcminə baxarkən görünür ki, hər iki tərəf əməkdaşlığın gücləndirilməsinə və konkret nəticəyə yönəlmiş işbirliyinə yönəlib: "Biz bu münasibətlərin dərinliyinə yaxşı bələdik. Bizim qarşılıqlı əlaqələrin sferası olduqca genişdir". "Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir. Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir". Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib."Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir", - deyə dövlətimizin başçısı vurğulayıb. "Mən ölkəmizin həyatı ilə bağlı bir çox mühüm məsələləri sosial mediadan öyrənirəm. Media ilə təmaslarımda həmişə deyirdim ki, siz gündəlik işimdə mənə yardımçı olursunuz", - deyən dövlətimizin başçısı bildirib ki, xüsusilə Azərbaycan kimi ölkədə insanın 24 saat işləməli olduğunu, istənilən xəbərə, yaxşı və ya pis xəbərə hazır olmalıdır: "Fəaliyyətin miqyası o qədər böyükdür ki, bəzən cəmiyyətin nəbzini hiss etmək olmur. Cəmiyyətin nəbzini hər zaman hiss etmək lazımdır.

**Ardı Səh. 5**

# Möhtəşəm tədbirlərin ünvanı Şuşadan dünyaya mesaj!

*Prezident İlham Əliyev Şuşa zirvəsində növbəti dəfə Azərbaycan reallıqlarını dünyaya nümayiş etdirdi*

Əvvəli Səh. 4

Mən ölkədə səyahət edirəm, insanlarla görüşürəm və təbii ki, sosial mediadan istifadə edirəm. Azərbaycanda baş verən bir çox hadisələr və mənə məruzə edilməmiş bəzi hadisələr, istər bürokratik maneələr və ya bilərəkdən mənə məruzə edilməyən müəyyən məsələlər olub və ya mən digər məsələlərlə məşğul olmuşam, hətta mənim nəvələrim mənə müəyyən məlumatlar verirlər. Övladlarım sosial mediada gördüklərini mənə deyirlər və mən özüm də sosial medianı izləyirəm. O, mənə çox yardımçı olur".

## "HƏR DƏFƏ QARABAĞA VƏ ŞƏRQİ ZƏNGƏZURA GƏLƏNDƏ, İLK NÖVBƏDƏ, HİSS ETDİYİM QÜRUR HİSSİDİR"





Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında Cənubi Qafqazın inkişafının nədən asılı olduğunu açıqlayıb: "Bilirsiniz, əslində, regional inkişaf, - Cənubi Qafqazı nəzərdə tuturam, - əsasən Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır". "Hazırda bir sıra beynəlxalq təşkilatlar bizə qarşılıqlı qəbul olunacaq həlli tapmaqda yardım etməyə çalışırlar. Xoşbəxtikdən bu günədək gördüklərimiz odur ki, bütün beynəlxalq təşkilatlar başa düşür ki, bu həllər beynəlxalq hüquqa əsaslanmalıdır. İkinci Qarabağ müharibəsindən indiyədək təxminən üç il keçib. Biz getdikcə daha çox birbaşa bəyanatlar eşidirik ki, Qarabağ Azərbaycanın hissəsidir. İşğal dövründə belə bəyanatlar olsaydı, çox güman ki, İkinci Qarabağ müharibəsi başlamazdı", - deyə dövlətimizin başçısı vurğulayıb. "Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir",-deyən Azərbaycan Prezidenti vurğulayıb ki, çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil.Vətən müharibəsinin qəhrəman əsgər və zabitlərimizin, xalqımızın vətənpərvərliyini bir daha nümayiş etdirdiyini vurğulayan Azərbaycan Prezidenti deyib: "Bütün bunlar xalqımızı bir daha hətta hər birimizə tanıtdı, Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha göstərdi, ilk növbədə, hər birimizə və bütün dünyaya". "Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. "Böyük Qayıdış" proqramı qəbul edilib, proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. İnfrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təxminən 7 milyard ABŞ dollarına bərabər olacaq. Bu, ancaq başlanğıcdır".Bu sözləri Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib."Birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıb", - deyə dövlət başçısı bildirib. "Növbəti üç il ərzində qarabağ və şərqi zəngəzur rayonları üzrə 150 mindən çox insanı qaytaracağıq", - deyən dövlətimizin başçısı çıxışında dədə-baba yurdlarından qaçqın düşən soydaşloarımızın növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonları üzrə 150 mindən çox insanı qaytaracağını vurğuladı: "Təkcə Qarabağ regionunda 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Şuşa şəhərində, ümid edirəm ki, gələn il birinci sakinlər gələcək, yerləşəcəklər". "Biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsun" , - deyən dövlətimizin başçısı bildirib ki, şəhərlərin Baş planları təsdiq olunanda şəhərlərdə yaşamış insanların da rəyi nəzərə alınmışdır. Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm: "Biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsun və buna doğru da gedirik və gedəcəyik". Dövlətimizin başçısı, həmçinin, "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında keçmiş məcburi köçkünlərə müraciət etdi: "Biz (ərazilərin minalardan təmizlənməsində - red.) dronlardan fəal şəkildə istifadə edirik. Bizim bəzi parlaq zəkaya malik insanların sayəsində belə artıq dronlar var. Bu, bizə böyük kömək olur. Biz dərk edirik ki, bu, çox uzun prosesdir".

## ERMƏNİSTAN QƏBUL EDİB Kİ, QARABAĞ AZƏRBAYCANDIR VƏ ARTIQ SƏNƏDƏ İMZA ATMAQ MƏRHƏLƏSİDİR

"Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə (Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə - red.) dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur".Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib. "Düşünürəm ki, Ermənistan son bir addım atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam olub. Onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, onlar bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun onlar üçün nə mənə daşıdığı kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sırf mühüm sonuncu məqamdır", - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında sülh məsələsi ilə bağlı vurğulayıb ki, əgər Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin (sülh müqaviləsinin - red.) ilin sonuna qədər imzalanması kifayət qədər mümkündür.Dövlətimizin başçısı qeyd edib ki, lakin bu olmasa, o halda sülh olmayacaq. Bu isə bölgə üçün yaxşı ssenari deyil, sabitlik, təhlükəsizlik bəxş etməyəcək. Eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alaraq gələcəkdə də çətinliklər yaradacaq.

## PREZİDENT İLHAM ƏLİYEV MEDİA FORUMUNDA ERMƏNİLƏRİN QARABAĞA KÖÇÜRÜLMƏSİNDƏN DANIŞIB

Prezident İlham Əliyev Forumda çıxışı zamanı ermənilərin Qarabağa köçürülməsi ilə bağla bildirdi ki, ermənilər Azərbaycan ərazisində uzun müddətdir ki, yaşamışlar. Onların Qarabağa kütləvi köçü XIX əsrin birinci yarısında başlamışdır. 1805-ci ildə Kürəkçay müqaviləsi nəticəsində Qarabağ xanlığının, ondan sonra imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın digər xanlıqlarının da Rusiya imperiyasının daxilinə salındığını xatırladan dövlətimizin başçısı qeyd edib: "Ondan sonra daha çox İrandan və Şərqi Anadoludan ermənilərin kütləvi məskunlaşması prosesi başlamışdır. Bunu təsdiqləyən çoxlu sənədlər var. Görkəmli dövlət xadimlərinin yazıları, məktubları, açıqlamaları - bütün bunlar tarixən təsdiqlənir. Yəni, onlar bu torpaqlara, Qarabağ torpağına, o cümlədən Şuşaya qonaq kimi gəlmişdilər". Azərbaycan Prezidenti Qarabağ erməniləri haqqında onu da bildirdi ki, biz maksimum şəkildə konstruktivlik göstərmişik: "Biz məsələ ilə (Qarabağın erməni əhalisinin inteqrasiyası - red.) bağlı dəfələrlə öz mövqeyimizi bildirmişik və maksimum şəkildə konstruktivlik göstərmişik".

"Ancaq bu gün Qarabağda "hakimiyyəti" əlində saxlayan xunta gah özlərinə "prezident" deyir, özlərini "deputat", "nazir" adlandırır. Bu, gülüş doğurur", - deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, onlar bu gün orada yaşayan erməniləri girov saxlayırlar. Qarabağdakı ermənilərin nümayəndələri ilə təmasların qurulması üçün xüsusi nümayəndənin təyin edildiyini xatırladan Prezident İlham Əliyev vurğulayıb ki, onlar bundan nümayişkaranə şəkildə imtina ediblər. Dövlətimizin başçısı, həmçinin deyib: "Bir müddətdən sonra biz növbəti dəfə onları dəvət etdik. Bəlkə də burada hər hansı bir səhv ola bilər deyə, onları növbəti dəfə dəvət etdik. Biz növbəti dəfə etiraz eşitdik, imtina eşitdik. Mən də dedim ki, bundan sonra heç bir dəvət olmayacaqdır. Biz reinteqrasiya yolu ilə gedəcəyik, getməyə hazırıq. Erməni azlığının (Qarabağdakı - red.) hüquqları və təhlükəsizliyi Konstitusiyamıza uyğun olaraq qorunacaq. "Azərbaycan multietnik, çoxdinli ölkədir. Bu da bizim sərvətimizdir, gücümüzdür. Bütün müxtəlif etnik qrupların, Azərbaycanda yaşayan qrupların nümayəndələri eyni hüquqlara malikdir, eyni öhdəlikləri var və onların təhlükəsizliyi eyni səviyyədə qorunur. Nə üçün hər hansı bir etnik qrup istisna olmalıdır və digərlərindən üstün olmalıdır? Mən bunu anlamıram. Yəni, bizim yanaşmamız budur. Biz hələ də ümid edirik ki, Xankəndidə yaşayan insanların sağlam düşüncəyə malik bir hissəsi dərk edəcək ki, bu yanaşmanın perspektivi yoxdur".

Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda bildirib ki, Brüssel formatı bir balaca əlavə dəstəkverici bir mexanizmdir ki, Ermənistan və Azərbaycan liderləri təmas qursunlar. Hesab edirəm ki, bu günə qədər o, müəyyən dərəcədə uğurlu olub.Dövlətimizin başçısı bu formatla Minsk qrupunun fərqindən də danışaraq deyib: "Bu formatın fərqi ondan ibarətdir ki, Minsk qrupunda üzvün biri Fransa idi, bu gün isə Fransa artıq yoxdur". Prezident qeyd edib ki, Fransa Avropa formatında o qədər də rəsmi vasitəçi deyil. Bu faktor müəyyən təzyiqləri aradan qaldırır, gərginliyi götürür ki, iki lider bir-biri ilə danışsın və bir-birinin mövqeyini daha yaxşı başa düşsün. Prezident İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında bildirib ki, i Qarabağ müharibəsi dövründə və müharibədən sonra Ermənistana yaxınlığı ilə seçilən ölkələr öz ermənipərəst mövqelərini daha gizlədə bilmədilər, yaxud da bunu istəmədilər.Bunun müəyyən dərəcədə Azərbaycanın həmin ölkələrlə münasibətlərinin gərginləşməsinə gətirib çıxardığını vurğulayan dövlətimizin başçısı deyib: "Ancaq bu o demək deyil ki, bu, əbədi belə olacaq. Bu mərhələ də başa çatacaq, yeni mərhələ açılacaq. Əsas odur ki, sənin gündəliyin olsun. Biz postmüharibə dövründə hər şeyi ardıcıllıqla etmişdik, bir addım əvvəlki addımın məntiqi davamı idi. Biz hədəfə doğru gedirdik, gedirik və bir çox hədəflərə çatmışıq. Bəzi hədəflər var, onlara çatmamışıq, amma onlara da çatacağıq".

Dövlətimizin başçısının söylədiyi kimi Azərbaycan hədəflərinə doğru gedir. Ölkəmiz postmüharibə dövründə ardıcıl şəkildə hədəflərinə nail olub və bu proses uğurla davam edir və bu reallıq onu göstərir ki, bizi heç kim saxlaya, yolundan döndərə bilməz, çünki biz haqlı və güclüyük.Və bu gün Azərbaycanın ərazi bütölüyünü təmin edən Prezident İlham Əliyev ölkəmizin möhtəşəm gələcəyini qurur. Çünk dövlət başçımızın söylədiyi kimi: "AZƏRBAYCAN RƏQABƏT MƏKANI DEYİL, ƏMƏKDAŞLIQ MƏKANIDIR".

**RƏFİQƏ KAMALQIZI**

# Antimilli şuranın ”bəyanat”ını kim hazırlayıb?

*Dağıdıcı müxalifət FETO-çunun həbsindən siyasi dividend əldə etməyə çalışır*

Bugünkü reallıq ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlər bir-birinə qarşı barışmaz düşməndirlər. KİV qarşısında isə özlərini elə təqdim etməyə çalışırlar ki, sanki partiyaların birləşməsinə, sədrlərin bir araya gəlməsində maraqlıdırlar və bunun uğrunda hər cür güzəştə hazırdırlar. Əslində isə, müxaliflər arasında vəziyyət o dərəcədə gərgin xarakter alıb ki, partiya sədrləri ötən illərdə aralarında baş verən ziddiyyətləri, məğlubiyyət səbəblərini bir-birlərinə xatırlatmaqla yanaşı, əldə etdikləri yeni məlumatları mətbuata açıqlamaqla, onları ifşa edəcəkləri ilə hədələyirlər. Məhz bu və bu kimi faktlar təsdiq edir ki, müxalifətin bu günü kimi sabahı da qaranlıqdır. Yəni onların fəaliyyətdə olmaları ilə olmamaları arasında heç bir fərq yoxdur. Artıq onların tarixin arxivinə atılmalarının zamanı çatıb. Yəqin ki, çox yaxın zamanlarda bunun şahidi olacağıq.



Müxalifətin ictimai rəydə özünə nüfuz qazana bilməməsinin və sosial bazadan məhrum olmasının bir neçə səbəbi var: Birincisi, səhv və düşünülməmiş siyasət aparmalarıdır. İkincisi, ağıllarına gələn istənilən iddianı ortaya ataraq, özlərinin siyasi varlığını sübut etməyə çalışmaq və sivil siyasi mübarizə əvəzinə, müxtəlif şoular təşkil edərək, gündəmdə qalmaq istəkləridir. Nəhayət, üçüncüsü, maddi imkanlar əldə etmək üçün xarici maraqlı qüvvələrlə iş birliyinə gedərək, milli və dövlətçilik maraqlarını satmağa cəhd göstərmələridir. Amma bu dayaz düşüncəli məxluqlar dərk etmirlər ki, artıq nəyin necə baş verdiyini onlardan yaxşı bilən ictimaiyyəti aldatmaq mümkün deyil. Hər kəs bilir ki, bu düşərgədə toplaşan azsaylı üzdəniraq siyasi fəallar və onların liderlərinin hər birinin öz ambisiyası var. Bu insanlar məqsədlərinə çatmaq naminə ən iyrənc addımları belə atmağa hazırdırlar.

Elə götürək bir neçə gün əvvəl FETO terror təşkilatı ilə əməkdaşlıq etdiyinə və ofisində aparılan axtarış zamanı saxta pul əskinasları aşkarlandığı üçün həbs edilən Quabad İbadoğlunun əməllərini. Bu şəxsin tərcümeyi-halına və siyasi proseslərdəki fəaliyyətinə nəzər yetirdikdə məlum olur ki, FETO-çu açıq şəkildə doğulub boya-başa çatdığı, imkanlarından geninə-boluna bəhrələndiyi Azərbaycan dövlətinə və xalqına qarşı düşmənçilik edir. Sosial şəbəkələrdə etdiyi paylaşmalarında və mətbuata verdiyi açıqlamalarında bir dənə də olsun müsbət xarakterli fikri yoxdur. Yalnız və yalnız Azərbaycanın sosial iqtisadi siyasətini, neft strategiyasını gözdən salıb, ictimai rəyi çaşdırmağa yönələn mövqe sərgiləyir. Niyə Q.İbadoğlu Azərbaycanın sosial, iqtisadi sferasında baş verən yüksək inkişafı, tərəqqini qara eynəkdə görməyə çalışır? Təbii ki, çoxsaylı suallara istintaq aydınlıq gətirəcək. İyulun 24-də keçirilən məhkəmə prosesindən sonra KİV üçün açıqlanan məlumatda qeyd olunur ki, saxlanılanlardan saxta pul, silah da daxil olmaqla, FETO təbliğatı üçün vəsaitlər götürülüb. Qubad İbadoğluya qarşı Cinayət Məcəlləsinin 204.1-ci maddəsi (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma) ilə ittiham irəli sürülüb.

Sağlam, praqmatik düşüncə sahibi olan insanlar Q. İbadoğlunun həbsinin əsaslı olduğunu və hüquq-mühafizə orqanlarına vaxtında qətiyyətli addım atdığına görə təşəkkürlərini bildirirlər. Lakin yenə də dağıdıcı müxalifət funksionerləri ənənəvi amplualarından çıxış edirlər. Yenə də C.Həsənli, T.Yaqublu, Ə.Kərimli və digərləri meydana çıxıb ağıllarına deyil, ağızlarına gələnləri danışırlar. ”Milli Şura” deyilən qondarma qurum bir qədər uzağa gedərək Q.İbadoğlunu müdafiə adı altında dövlətçiliyə qarşı böhtanlar qeyd edib. Qüsurlu və cızma-qaradan ibarət olan ”bəyanat”da antimilli ”şuraçı”lar yenə öz amplualarından çıxış edirlər. Hüququn aliliyini rəhbər tutaraq qanunun tələbi əsasında atılan addımı siyasiləşdirməklə manipulyasiya edir, məsələnin mahiyyətini cəmiyyətə fərqli formada təqdim etməyə çalışırlar. Yəni yenə və yenidən xalqı aldatmaq cəhdi müşahidə olunur.

İkincisi, hətta daha da irəli gedərək ”dövlət səviyyəsində zorakılıq” kimi ittihamedici ifadələrdən istifadə etməklə Azərbaycan dövlətini hədəfə çevirməyə çalışırlar. İstisna deyil ki, bu ”bəyanat” ”şuraçılar”ın qrant aldıqları dairələrdə hazırlanıb. Çünki birbaşa Azərbaycan dövləti, ayrı-ayrı dövlət qurumları və təşkilatlar, ictimai xadimlər hədəf seçilib, Qarabağda quruculuq-abadlıq işlərinin spekulyasiya edilməsi cəhdləri var. Söz yox ki, ”bəyanat” Avropanın qərəzli fondları tərəfindən hazırlanaraq, ”Milli Şura” üzvlərinə yaymaq üçün təqdim olunub. Qondarma sifarişli ”bəyanat”ın ardınca C.Həsənli Q.İbadoğlunu həbsi ilə bağlı özünün boş və mənasız şərhlərini verir. ”Milli Şura”nın üzvü T.Yaqublu sifarişlər əsasında dezinformasiyalar yayır, məhkəmə-hüquq sisteminin ünvanına ağ yalanlar səsləndirir.

Beləliklə, ayrı-ayrı vaxtlarda müxtəlif məsələlərlə bağlı xaricdəki erməniпərəst dairələrin Azərbaycana qarşı səsləndirdikləri qərəzli və qeyri-obyektiv fikirlər mahiyyət etibarilə bu ”bəyanat”da da yer alıb. Bu isə antimilli ünsürlərin anti-Azərbaycan dairələrin tezislərini yaydığını göstərir.

***İ.ƏLİYEV***

ARAŞDIRMA

# Ermənistanı ekoterroru davam etdirməyə nə vadar edir?

Ermənistan Azərbaycanla sərhəddə, Arazdəyəndə metallurgiya zavodunu istismara vermək istəyir. Bu isə ölkəmizdə ekologiyaya və insan sağlamlığına dəyəcək zərərlə bağlı Azərbaycan xalqını narahat edir.



Bu barədə Milli Məclisin deputatı Sadiq Qurbanov SİA-ya danışıb: ”Ermənistanın Arazdəyəndə, Naxçıvanla sərhəddə metallurgiya zavodunu tikməsi qeyri-qanuni prosesdir. Çünki bildiyimiz ki, ”Espo” konvensiyasına görə, qonşu dövlətlərlə sərhəddə və ya sərhədə yaxın ərazidə mühüm layihə həyata keçirilirsə, həmin layihələrin ekoloji ekspertizası keçirilir və həmin ərazilərdə, qonşu dövlətlərdə yaşayan insanlara ekoloji cəhətdən dəyən zərər hesablanmalıdır. Eyni zamanda, qonşu dövlətin ekspertləri, monitorinq qrupu həmin layihənin həyata keçirilməsinə icazə verməlidir. Buna görə də Azərbaycan tərəfindən heç bir icazə verilməyib, razılıq əldə edilməyib. Bu, təbii ki, qeyri-qanuni hərəkətdir və Azərbaycan bütün Qarabağ ərazisində apardığı işlər, eyni zamanda, dünya ekologiyasına etdiyi xoşməramlı niyyətini burada da ortaya qoyur və Ermənistan tərəfini bu metallurgiya zavodunun tikintisini dayandırmağa çağırır.

Fikrimcə, ermənilər daima beynəlxalq konvensiyalara, qanunlara həmişə dırnaqarası baxıb, heç vaxt onları qəbul etməyib. Əgər etsəydilər 30 il ərzində BMT-nin qərarlarını icra etməyə yönələrdilər. Azərbaycan isə öz gücü ilə işğalın qarşısını aldı, öz ordusu ilə məqsədlərinə nail oldu. Bunlar provokasiya xarakterli layihələrdir, Azərbaycanın - Naxçıvanın ərazisində yeni bir problemin yaranmasına gətirib çıxarmaq istəyirlər. Cənab Prezidentin də ”Espo” Konvensiyasını xatırladaraq qeyd etdiyi kimi, onlara nəyi etməli olduqlarını bir daha xatırlatdı. Ümid edirəm ki, Ermənistan da bu layihəni öz xoşu ilə saxlayar. Əgər belə olmasa, Azərbaycan tərəfi yəqin ki, beynəlxalq hüquq, konvensiyanın tələbləri çərçivəsində, lazım gələrsə də dəmir yumruq sayəsində bu layihəni dayandıracaq”.

***Aysel***

# Hansı hallarda övladlara mirasdan pay düşmür?

*VƏKİL AÇIQLADI*



**Bir çox ailələrin və ailə üzvlərinin ən çox mübahisə etdiyi məsələlərdən biri də miras və əmlakdan pay məsələsi olur. Övladlara hər zaman valideynin mülkündən pay düşdüyü hər kəsə məlumdur. Lakin burada da istisna hallar vardır.**

Övladlara hansı hallarda vərəsəlik hüququnun verilməməsi barədə vəkil Vüqar Tumasov SİA-ya danışıb: ”Mülki Məcəllənin 1137-ci maddəsində övladın ləyaqətsiz vərəsə hesab edilməsi barədə qeyd edilir. Bu maddə birbaşa ləyaqətsiz vərəsələrə aiddir və bu ləyaqətsiz vərəsə miras qoyanın son iradəsinin həyata keçirilməsinə qəsdən maneçilik törətmiş, bununla da özünün, özünə yaxın şəxslərin vərəsəlik çağrılmasına, miras payının artırılmasına cəhd edib. Vəsiyyət edənin vəsiyyətnaməde edilmiş son iradəsinə qarşı qəsdən cinayət və əxlaqsız hərəkət törətmiş şəxs ləyaqətsiz vərəsə hesab edilir və bu hallar məhkəmə tərəfindən təsdiq edildikdən sonra nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ala bilməz. Ləyaqətsiz hesab edilən vərəsə də mirasa vərəsə ola bilməz. Əgər şəxs mirası aldıqdan sonra məhkəmə tərəfindən ləyaqətsiz vərəsə sayılarsa, vərəsəlik üzrə aldıqlarının hamısını bəhərlər və gəlirlər ilə birlikdə qaytarmağa borcludur. Vərəsəlik hüququndan məhrum edilmiş şəxsin payı vərəsəliyə çağırılmış qalan vərəsələrə keçir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür”.

”Bundan başqa digər hallarda övladlar vərəsə ola bilərlər. Hətta miras qoyan əmlakını başqa insana vəsiyyət etsə belə, həmin əmlakda övladların payı vardır. Məcburi pay deyilən bir anlayışa görə övladlara həmin əmlakdan pay düşür.

Bundan başqa qanunla vərəsəliyi qəbul etmək üçün hökmən notariat kontoruna müraciət etmək lazımdır. Notariat kontoruna müraciət edərkən qanunla müəyyən edilmiş 3 aylıq müddət ötürülməməlidir. 6 ay keçdiyi təqdirdə isə vərəsə tərəfdən mirasın qəbuluna yol verilmir. Mirasın digər qəbulolunma yolu isə vərəsəlik hüququ olan şəxsin həmin əmlak və ya mənzildə yaşamasıdır. Bu halda vərəsə miras əmlakı qəbul etmiş sayılır. Bundan sonra məhkəməyə, notariusa müraciət edərək mirasın qəbul olunması ilə bağlı mübahisə yoxdursa bu halda vərəsəlik haqqında şəhadətnamə verilir və mirası faktiki şəkildə qəbul etmiş sayılır”, - vəkil bildirib.

***A. Naibli***

# Üsyan adı altında
## ƏNƏNƏVİ ERMƏNİ TRAGİKOMEDİYASI

**İllərin təcrübəsi və hadisələrin gedişi təsdiq edir ki, ermənilərin etdikləri üsyan hər zaman mənasız olub və bir növ, əvvəlcə lətifəyə, gülüş doğuran hadisələrə bənzərliyi, sonda isə özləri üçün faciələrlə nəticələnməsi ilə yadda qalıb. Daha dəqiq desək, tarix boyu hayların məskunlaşdıqları ərazilərdə qaldırdıqları üsyanların mənasızlığı, gülünc olduğu, komikliyi ən qısa zamanda ortaya çıxıb, nəticə etibarı ilə erməni cəmiyyətinə baha başa gəlib və bu baxımdan da cəsarətlə deyə bilərik ki, üsyan adı altında qaldırılan səs-küy sadəcə olaraq, ənənəvi erməni tragikomediyasıdır.**







Bir neçə il əvvələ səyahət etsək görərik ki, çox pafoslu çıxışlarla ortaya atılan beli çantalı küçə nümayişçisi Nikol eynən indiki usyançılar, etirazçılar kimi gülünc görünməsinə baxmayaraq erməni cəmiyyəti tərəfindən ciddi qarşılanmışdı və ondan həmin cəmiyyətin gözləntiləri yüksək idi. Amma qısa zaman keçməsinə baxmayaraq tamamilə başqa mənzərə ortaya çıxdı. Doğrudur, səsi tutulana qədər qışqıran həmin o saqqallı, beysbol papaqlı, solğun köynəkli və beli çantalı küçə nümayişçisi Ermənistanın şəhərlərində üsyan qaldıra bildi və sonda da öz məqsədinə, yalnız öz məqsədinə nail oldu, yəni hakimiyyəti ələ keçirdi. Fəqət, üsyan qaldıran zaman erməni xalqına "qızıl dağlar" vəd edən həmin o küçə nümayişçisi Nikol Paşinyan xalqına nəinki heç nə verə bilmədi, ümumiyyətlə, hakimiyyəti qamarladıqdan sonra bu haqda heç düşünmədi də. "Qarabağ Ermənistandır və nöqtə", deyən Vovayeviç kapitulyasiya sənədinə imza atandan bir qədər sonra Azərbaycanın da, ölkəmizin Qarabağ iqtisadi rayonunun da ərazi bütövlüyünü tanıdığını bəyan etmək, daha doğrusu etiraf etmək məcburiyyətində qaldı. O, nə erməni xalqını "ağ günə" çıxara bildi, nə heç bir sahədə ölkəsinin irəliləyişinə, təmsil etdiyi cəmiyyətin rifah halının yaxşılaşdırılmasına, səfalətin aradan qaldırılmasına nail olmadı, nə də erməni yalanlarının ayaq tutub yeriməsinə kömək belə edə bilmədi. Hətta, Nikolun hansı şəkildə transformasiya olunduğunu, həmçinin, hayların məkrli niyyətlərini reallaşdıra bilməməsini, çarəsizliyini belə nəinki biz, eləcə də ermənilər özləri də gördülər. Bu isə, erməni cəmiyyəti üçün tragediya sayılır, çünki uzun illər başqalarına məxsus olanı ələ keçirmək məqsədi ilə verdikləri itgilərinin də, əməllərinin də puç, mənasız olduğu erməni baş nazirinin etirafından, ölkəmizin ərazi bütövlüyünü tanıması barədə bəyan etməsindən sonra bir daha öz təsdiqini tapdı.

Mütəmadi olaraq Ermənistana məxsus mətbuat səhifələrində erməni cəmiyyətinin düçar olduğu hər bir bədbəxtliyə, rəzalətə, rüsvayçı məğlubiyyətə, tələfata, itgilərə, səfalətə görə Paşinyanın günahkar olduğu barədə qeyd olunur, halbuki bütün bunlar mənfur əməllərin məntiqi nəticəsi olduğu bəllidir. Bir zaman ermənilərin az qala, "xilaskar" kimi qələmə verdikləri həmin adam elə erməni cəmiyyətində indi hədəfə alınıb və ona, "satqın", "kapitulyant", hətta "Türkiyənin agenti" də deyilir. Ermənistanda kütlənin "qəhrəman" adlandırdığı adam çox qısa zaman fasiləsində "satqın" adlandırıldı, qınanıldı, təhqir olundu, düşmən kimi görünməyə başladı. İndi həmin hadisənin xronologiyasını xatırladıqda görürük ki, beli çantalı küçə nümayişçisinin meydanlara gəlişi və ermənilərə "yağlı" vədlər verməsi gülünc göründüyü kimi, indi də erməni cəmiyyətinin gözündə onun satqın, düşmən gözündə görünməsi, çarəsiz vəziyyətdə, məğlub durumda qalması da həmin cəmiyyət üçün də, özü üçün də faciəli görünür. Sanki sehrli çubuqla Nikolun hər şeyi dəyişəcəyi təəssüratı yaradan hadisələrin başlanğıcı komik, amma qısa müddət sonrası, yəni satdın, xain damğası almasından sonrası isə onun üçün də, cəmiyyəti üçün də tragediya olduğu baxımından prosesi erməni tragikomediyası adlandırmaq zənnimcə, qüsur sayılmaz. İndi analoji vəziyyətin yenə də başlanğıcıdır və ənənəvi erməni tragikomediyası növbəti dəfə təzahür etməkdədir.

İyulun 24-də bir qrup Ermənistan vətəndaşı İrəvanda Xancyan küçəsi ilə Sayat-Nova prospektinin kəsişməsini bağlayıb. Maraqlıdır, hansı məqsədlə bunu ediblər və niyyət nədən ibarət olub? Belə məlum olub ki, onlar Azərbaycanın Qarabağ iqtisadi rayonunun erməni əhalisinə guya dəstək vermək istəyirlərmiş. Toplaşanların əllərində, "həyat yolunu aç", "biz qondarma humanizmə yox deyirik", "biz Artsaxıq" şuarları yazılan plakatlar olan üsyançılar birlik şuarları da səsləndiriblər, amma hansı birlikdən söhbət getdiyi bəlli olmadığından, bu məqam da gülməli görünür. Gülməli olan məqamlar içərisində ən komedik olanı Qarabağ iqtisadi rayonu barədə iddialılıqdır. Həqiqətən də, Azərbaycanın öz əzəli və əbədi torpaqlarını erməni işğalından xilas etməsindən, mükəmməl qələbə qazanaraq ərazi bütövlüyünü təmin etməsindən, ermənilərin çox böyük, hələ də altından çıxa bilmədikləri itgilərə məruz qalmalarından, rəzalət, səfalət halına düşmələrindən sonra belə bir iddia gülüş doğurmaya, komik görünməyə bilməz. Əvvəla ona görə ki, uydurduqları dırnaqarası "Artsax" kəlməsi belə rüsvayçı məğlubiyyətlərindən sonra dərhal tarixin zibilliyinə atılıb. Digər tərəfdən də axı onlar kimdirlər ki, belə bir iddia ilə çıxış etsinlər və İrəvanın küçələrində hansı haqla sayıqlayırlar? Həm də axı həmin torpaqların sahibləri öz ərazilərini qanları, canları bahasına 44 günlük müharibədə əldə etdikləri qələbə ilə işğaldan azad edərək, xalqımıza məxsus olanı geri qaytardılar, Azərbaycanın ərazi bütövlüyünü təmin etdilər. İndi ermənilərin belə sayıqlamaları necə gülünc görünməyə bilər? Bəlkə yenə də ərazi iddiası ilə müharibə, nəticədə də itgilər vermək, faciə ilə yenidən qarşılaşmaq arzusundadırlar? Bax budur erməni tragikomediyası. Özü də bu, ənənəvi erməni tragikomediyasıdır, çünki periodik olaraq təkrarlanılmasını haylar özləri həm arzulayırlar, həm də reallaşdırırlar.

Görəsən, bütövlükdə erməni xalqı öz "qəhrəmanı" Nikol kimi nə vaxt transformasiya olunacaq və nə vaxt əsassız iddialardan, cəfəngiyyatlardan, uğursuz miflərdən, ərazi iddialarından, başqalarına mənsub olanı ələ keçirmək, oğurlamaq arzusundan əl çəkib normal, sülh şəraitində yaşamaq fikrinə düşəcək? Bəs bu toplum nə vaxt normal qonşuluq, sülh şəraitində yaşamaq məqsədi ilə marginallaşmış vəziyyətdən xilas olmaq qərarına gələcək? Hələ neçə ənənəvi erməni tragikomediyası müşahidə edilməlidir ki, bu toplum dərs alsın? Etiraf etmək lazımdır ki, erməni xislətini nəzərə alaraq, bu barədə proqnoz vermək də olmur. Heç İrəvandakı etirazçıların şüurunun da nə vaxt transformasiya olunacağı məlum deyil və ancaq bunun da hansısa faciə ilə nəticələnməsindən sonra müəyyən nəticələr hasil olacağı barədə söyləmək olar. Amma görünən odur ki, ermənilər faciədən, tragikomediyadan yaxa qurtarmağı yox, növbəti mif haqqında spekulyasiya etməyi daha vacib hesab edirlər. Ermənilər məhz Ağdamdan keçməklə Xankəndinə humanitar yüklərin çatdırılması barədə Azərbaycanın təklifi haqda deyil, ənənəvi erməni tragikomediyasının yeni zirvələrini fəth etmək, sujet xəttinin, ekspozisiyanın kuliminasiyasına çatmaq barədə düşünürlər. Ola bilsin ki, İrəvanın başqa küçələrini də bağlamaq, Azərbaycana məxsus olan Qarabağ torpaqlarında yaşayan ermənilər barədə də daha axmaq fikirlər irəli sürmək ağıllarına gələ bilər. Amma əmin olsunlar ki, onların bu axmaqlıqları Azərbaycanın Qarabağ iqtisadi rayonunda qeyri-qanuni məskunlaşan Ermənistan pasportu daşıyanlara qətiyyən kömək etməyəcək. Əksinə, belə qənaətə gəlinməsi onlar üçün daha acınacaqlı, faciəvi vəziyyətin yaranmasına gətirib çıxara bilər ki, bu da növbəti tragikomediya kimi yaddaşlarına yazılar.

***İnam Hacıyev***



# Sözü imzası qədər qüvvətli olan LİDER!

*Prezident İlham Əliyev: "Əziz Şuşa, biz səni dirçəldəcəyik"*

**Azərbaycanın dilbər guşəsi Qarabağımız müasir dünyamızda yeni dövrünü yaşayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Əsrlərin yaddaşında özünə yuva qurmuş Qarabağımızın tarixi, daşı, qayası, mədəniyyət abidələri, dini ocaqları hər zaman möhtəşəmliyi ilə diqqətdə olmuş və qürurla səhifələdiyimiz daş abidələrdə öz əksini tapmışdır. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb.**

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfərləri və burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu müqəddəs şəhər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Böyük Qayıdışın yüksək səviyyədə reallaşmasına xidmət edən addımların miqyasının genişliyi diqqətdən kənarda qalmır. Qarabağın tacı Şuşada aparılan bərpa-quruculuq işləri, yaşanan çal-çağırlı günlər dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə xalqa müraciətində səsləndirdiyi bu fikirləri xatırladır: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik". Şuşa yeni həyatına qədəm qoyub. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısı çıxışlarının birində bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri və görülən işlərlə tanışlığı buranı gələcək gözəl həyatına söykənir.

Cənab Prezident Şuşaya hər səfəri tarixi hadisələrlə yadda qalır. Şəhərdə inşa edilən yeni yaşayış kompleksinin tikinti işləri davam edir. Qədim mədəniyyət paytaxtımızda yaşayış kompleksinin yaradılması otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan şuşalıların bu arzularına çatacağı günün lap yaxında olduğunu göstərir. Şuşada vaxtilə keçirilən Vaqif Poeziya Günləri və "Xarı bülbül" festivalı bərpa olundu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu. Ölkə Prezidenti İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Bu sözlər də artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Azərbaycan dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında güc, əzm, iradə, cəsarət, mətanət, milli ruh hesabına tarixi ədaləti bərpa etdi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan bir çox tarixi-dini abidələrimiz bərpa olunur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.

Qeyd edək ki, Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri, 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlqoyma mərasimi, Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin, Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı və digər işlər bu diyarın əvvəlki şöhrətinin özünə qaytarılmasına xidmət edən mühüm məqamlar sırasındandır. Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının, Dəmir Yumruq küçəsinin lövhəsinin açılışı və s. işlər Şuşanın yenidən qurulmasının təzahürüdür.

## DAŞALTI KƏNDİNƏ 220 AİLƏ KÖÇÜRÜLƏCƏK

yulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub. Şuşa şəhəri üçün strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin bərpası qarşıya qoyulan əsas məqsədlərdəndir. Kəndin inkişafı, burada məskunlaşacaq əhali üçün rahat və sağlam yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi prioritetlər arasındadır. Bunu nəzərə alaraq yenidənqurma üzrə təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur. Görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev - ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə, həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, otel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır. Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda otel və istirahət mərkəzi tikiləcək. Otel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nömrədən ibarət olacaq otel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

## ƏHALİNİN TİBBİ TƏMİNATI VƏ SAĞLAMLIĞI

Qeyd edək ki, əhalinin sağlamlığı daim dövlətimizin başçısının diqqət mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibb və səhiyyə xidmətlərinin təşkili üçün qısa bir müddətdə genişmiqyaslı işlər həyata keçirilir. Şuşa şəhər xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir. Azad edilmiş digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

Azərbaycan Prezidenti İlham Əliyev 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının binasında tikinti işlərinin gedişi ilə tanış olub. Xatırladaq ki, Şuşa şəhər xəstəxanasının təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa şəhər xəstəxanasının ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

## BÖYÜK QAYIDIŞ VƏ TƏHSİL OCAĞIMIZ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub. Şuşa şəhər 1 nömrəli tam orta məktəbin 960 şagird yerlik üçmərtəbəli binasında tədrisin təşkili üçün hər cür şərait yaradılıb. Məktəbdə hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, 1 STEAM mərkəzi, kitabxana və oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, tibb otağı, müayinə otağı, yeməkxana, həmçinin akt və idman zalları, inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, transformator, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası da yekunlaşıb.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında da özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri olublar. Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verib. Şuşada 1 saylı tam orta məktəb binasının inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəb binasının inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.

Ölkə Prezidenti cənab İlham Əliyev həmişə çıxışlarında "Mənim sözüm imzam qədər qüvvətlidir", - deyir. Şuşa səfəri və görülən işlər Cənab İlham Əliyevin sözünün və əməlinin vəhdətinin növbəti nümayişidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Uzun illər Azərbaycanla enerji sahəsində əməkdaşlıq edən bir sıra xarici ölkələrin qabaqcıl şirkətləri alternativ və bərpa olunan enerji resurslarımıza da böyük maraq göstərirlər. Bu da Azərbaycanda əlverişli investisiya mühitinin mövcudluğu və ölkəmizdə hökm sürən siyasi sabitliyin nəticəsidir. Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasının bərpa olunan enerji potensialı da xarici şirkətlərin diqqətini getdikcə daha çox cəlb etməyə başlayıb. Çünki əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanın münasib iqlim şəraiti burada bərpa olunan enerji istehsalı üçün yaxşı imkanlar yaradır. Bu da muxtar respublikanın region üçün strateji əhəmiyyətini getdikcə artırır. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan edib.**



# Naxçıvanın həyatında yeni enerji əsri başlayır

*Qarabağ və Şərqi Zəngəzurla yanaşı, muxtar respublikanın da "yaşıl enerji zonası" elan edilməsi Prezident İlham Əliyevin mütərəqqi inkişaf strategiyasının təzahürüdür*

Artıq muxtar respublikanın həyatında yeni dövr-energetika əsri başlayıb. Son hesablamalara görə, Naxçıvanın, eləcə də Qarabağ və Şərqi Zəngəzurun bərpa olunan enerji mənbələri üzrə ümumi texniki potensialı 15 qiqavat təşkil edir. Son zamanlar ölkəmizin işğaldan azad olunmuş ərazilərində 53,6 meqavat gücündə 11 kiçik su elektrik stansiyası istismara verilib. Hazırda isə 70,5 meqavat gücündə 7 belə stansiyanın inşası davam etdirilir. Bundan əlavə, il ərzində ümumi gücü 76,8 meqavat olan 9 stansiyanın da tikintisinə başlanılacaq.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun dediyinə görə, əlverişli günəş radiasiyasına malik Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi üçün xüsusi inkişaf konsepsiyası hazırlanıb. Bu konsepsiyaya əsasən, muxtar respublikada külək və günəş enerjisi üzrə 1500 meqavatlıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 meqavatının Türkiyə və Avropa istiqamətində ixracı nəzərdə tutulur. Hazırda özəl investisiyaların alternativ və bərpa olunan enerji mənbələrinin yaradılmasına cəlb edilməsi istiqamətində işlər aparılır. Artıq "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə ümumi gücü 900 meqavat olan günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalanıb. Həmin güclərin 650 meqavatının məhz Naxçıvanda yaradılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, yaxın illərdə Naxçıvanın "yaşıl enerji" şəbəkəsi xeyli genişləndiriləcək. Həmçinin Naxçıvan "yaşıl enerji"nin istehsal və istehlakı ilə bərabər, ixracının da mənbəyinə çevriləcək.

"Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə "yaşıl enerji"ni ixrac edəcəyik".

Bu fikri Prezident İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirədə söyləyib. Ölkə başçısının sözlərinə görə, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı qəbul olunan Dövlət Proqramı tam icra ediləcək: "Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır və əminəm ki, tam icra ediləcək. Çünki bu proqram bizim öz resurslarımıza əsaslanıbdır. O cümlədən mən nə üçün bunu indi dilə gətirirəm, orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də "yaşıl enerji"ni ixrac edəcəyik".

Qeyd edək ki, Naxçıvanın energetikasında mövcud təbii potensialdan lazımınca istifadə son bir neçə ildə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkanlar açıb, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə olunub. Son illər yeni su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verib. Belə ki, ümumi qoyuluş gücü 241,8 MVt olan iki istilik elektrik stansiyası və beş su elektrik stansiyası, üç günəş elektrik stansiyası, bir külək-günəş hibrid elektrik stansiyası, bir külək elektrik stansiyası vardır. Bu stansiyalardan on biri müstəqillik illərində tikilib istismara verilmişdir. 2006-cı ildə 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, həmin ildə Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Su Elektrik Stansiyası, 2010-cu ildə Gilançay üzərində 20 meqavat gücündə "Biləv" Su Elektrik Stansiyası, 2014-cü ildə isə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su elektrik stansiyaları istismara verilib.







Coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. 2015-ci ilin dekabr ayında Babək rayonunun Xal-Xal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. 2017-ci ilin sentyabr ayında stansiyanın gücü 2 meqavat artırılaraq 22 meqavata çatdırılmışdır. 2019-cu ilin fevral ayının 22-də Kəngərli rayonunun Qabıllı kəndində 2 meqavat gücündə Kəngərli Günəş Elektrik Stansiyası istifadəyə verilmiş, 2020-ci ilin iyul ayının 8-də stansiyanın gücü daha 3 meqavat artırılaraq 5 meqavata çatdırılmışdır. 2021-ci ilin may ayının 26-da istifadəyə verilən Şərur rayonunun Zeyvə kəndində 5 meqavat gücündə Şərur Günəş Elektrik Stansiyasının 2022-ci ilin may ayında gücü 3 meqavat artırılaraq 8 meqavata çatdırılmışdır. 2021-ci ilin iyun ayının 18-də isə Culfa rayonunun Gülüstan kəndində 1,1 meqavat gücündə Culfa Külək-Günəş Hibrid Elektrik Stansiyası, 2022-ci ilin oktyabr ayının 31-də Culfa şəhəri yaxınlığında 0,3 meqavat gücündə Culfa Külək Elektrik Stansiyası istifadəyə verilmişdir. Şərur rayonunun Zeyvə kəndində Şərur Günəş Elektrik Stansiyasının layihə gücünün daha 3 meqavat artırılması işləri aparılır.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirən və onu enerji mərkəzinə çevirən yeni bir inkişaf mərhələsi başlanır. Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsi də dövlət başçısının mütərəqqi inkişaf siyasətinin təzahürüdür.

***Sevinc Azadi***

# Tehrandan etiraz dalğasına qarşı yeni üsul

## İran hakimiyyəti universitetlərdə müxaliflərə sərhəddə isə Talibana nəzarəti gücləndirib



**İran hakimiyyəti ötən il 22 yaşlı Məhsa Əmininin ölümündən sonra başlayan genişmiqyaslı etirazın təkrarlanmasından qorxur. Rəsmilər ciddi şəkildə inanırlar ki, hökumət əleyhinə etirazların başlamasının sentyabr ildönümü müxalifətə yenidən küçələrə qayıtmağa əsas verəcək. Bu vəziyyət İslam Respublikası rəhbərliyinin qarşısında hətta kiçik müqavimət ciblərini də yatırmaq üçün vasitələr məsələsini qoyur. Yaxınlaşan və vəziyyəti gərginləşdirə biləcək parlament seçkiləri də Tehran üçün kifayət qədər ciddi amilə çevriləcək.**

Hökumət əleyhinə çıxışların təkrarlana biləcəyindən narahatlığını ali liderin ali təhsil müəssisələrindəki nümayəndəsi Mostafa Rostami dilə gətirib. Tehranda ictimai tədbirdə çıxış edən nümayəndə İslam Respublikasına müxalif qüvvələrin təslim olmadıqlarını və indi universitetləri ”yeni iğtişaşların” başlamalı olduğu əsas yer hesab etdiklərini deyib. Rostami Məhsa Əmininin ölümü ilə bağlı küçə aksiyalarına toxunaraq, ”Düşmənlərin keçən il İrana qarşı tarixin ən mürəkkəb birləşmiş müharibəsini başlatdıqlarını söyləmək mübaliğə olmaz. Keçən ilki iğtişaşların ildönümündə bir şey edə bilməsələr, tamamilə əzilmiş olacaqlar”, deyib.

Bununla yanaşı, İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) siyasi məsələlər üzrə komandirinin müavini, briqada generalı Yadollah Cavani də İrandakı ali təhsil müəssisələrinin hökumət əleyhinə aksiyalar üçün start meydançasına çevrilə biləcəyi ilə bağlı qorxularını təsdiqləyən bəyanatla çıxış edib. Etirazlara görə kənar qüvvələri günahlandıraraq, müxalifətə qarşı sərt çağırışları ilə tanınan hərbi lider universitetlərə nəzarətin gücləndirilməsinin yeni etiraz dalğasının qarşısını almağa kömək edəcəyinə əminliyini ifadə edib. Onun sözlərinə görə, bu, gələn ilin martına təyin olunan Məclisə seçkilərə qədər edilməlidir.

Tehrana qarşı çıxan telekanallar öz tələbə mənbələrinə istinadən bildirirlər ki, İranın Ali Milli Təhlükəsizlik Şurası artıq yerli universitetlərə tələbə və müəllimlərə nəzarət etmək üçün fövqəladə səlahiyyətlər verib. Bu ay Böyük Britaniyanın ”Guardian” qəzeti bəzi ali təhsil müəssisələrinin hicaba laqeyd yanaşdığı görülən qız tələbələri kütləvi şəkildə dayandırmağa başladığını bildirib. Əlliyə yaxın tələbənin sanksiyalara məruz qaldığı bildirilib. Üstəlik, palatalara dəstək olmaq qərarına gələn professor-müəllim heyətinin nümayəndələrinin də repressiyaya məruz qaldığına dair sübutlar var.

İyulun 16-dan İslam Respublikasında hicab geyinmə qaydalarına riayət olunmasına nəzarət etməli olan piyada və avtomobil patrullarının bərpası da qorxulu görünür. Polisin verdiyi məlumata görə, təşəbbüs ayrı-ayrı vətəndaşların və ictimai təşkilatların müraciəti əsasında irəli sürülüb. İdeya prezident İbrahim Rəisi və ədliyyə orqanları tərəfindən bəyənilib. Faktiki olaraq, bu tədbirlər etirazdan əvvəlki reallığa geri dönüş etdi. Qadağalar 2022-ci ilin sentyabrında dini geyim qaydasını yumşaltmaq tələbləri ilə başlayan küçə aksiyaları fonunda tamamilə ləğv edilmədi, əksinə, yəqin ki, lazımsız gərginlik amili yaratmamaq üçün gözdən itdi.

Qarşıdan gələn parlament seçkiləri çox güman ki, cəmiyyət-hakimiyyət münasibətlərində yeni qıcıqlandırıcı olacaq, çünki onlar siyasi mənzərəni daralda bilər. Stimson Mərkəzinin analitiki qeyd edib ki, ”Qətiyyətlilər düşərgəsi səs verən seçicilərin 20%-dən çoxunu cəlb etmir, lakin onlar daha güclü təşviqlərə və daha cəlbedici namizədlərə ehtiyacı olan digər iranlılardan fərqli olaraq yaxşı təşkil olunub və bloklarda işləyirlər”. Bu hesablamalara görə, hazırkı mühafizəkar elitanın əleyhdarları olan mötədil və islahatçı düşərgə üzvlərinin bu qrupları marginallaşdırmaq üçün ölkənin ali rəhbərliyinin sistemli fəaliyyəti nəticəsində Məclisə daxil olmaq şansları çox azdır.

Səsvermə vəziyyətinin küçənin səsini gücləndirə biləcəyi bu aylarda dəfələrlə deyilsə də, hökumət əleyhinə hərəkatın öz problemləri var. Vaşinqton Yaxın Şərq Siyasəti İnstitutunun (WINEP) hesabatında ”İndi müxalifətin kifayət qədər liderləri var” deyilir. Amma hələlik heç kim siyasi qruplar və fraksiyalar arasında koordinasiya qura bilməz, milli koalisiyanın yaradılmasından başqa. İranda siyasi hərəkata rəhbərlik edəcək gələcək rəhbərliyi formalaşdırmaq üçün demokratiyaya keçidə nail olmağa ümid edən partiyaların və şəxslərin əksəriyyəti kollektiv razılaşmaya gəlməlidir”.

Tədqiqatçılar qeyd edirlər ki, ali lider Əli Xamneyinin potensial gedişi və hakimiyyətin ötürülməsi prosesi ilə ölkənin ali rəhbərliyi daxilində yeni fikir ayrılıqlarının yaranması mümkündür. WINEP ekspertləri belə qənaətə gəlirlər ki, bu baxımdan rejim daha çevik ola bilər, sadəcə olaraq status-kvonu saxlamaq və müxalifət qruplarını bir-birinə qarşı qoymaq üçün öz sıralarına müxalifətin daha az barışmaz fraksiyalarını cəlb edə bilər.

### Su qıtlığı İranı qonşuya möhtac qoyub

Bu arada dünya mediasında İranla Əfqanıstan arasında böyük müharibənin olma ehtimalından danışılır. Rəsmi Tehranın ritorikasında təhdidlər yer alır. XİN bəyan edib ki, Taliban hökuməti Tehrandakı səfirliyini itirə bilər. Bu təkliflə sərhəddəki həll olunmamış problemlərə cavab axtaran İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvləri çıxış ediblər. İslam Respublikasının qonşu əyalətləri su qıtlığı ilə üzləşməkdə davam edir və bu, adətən Talibanın mühüm çaylara çıxışı monopoliyaya almaq istəyi ilə əlaqələndirilir. Ekspertlər xarici qüvvələrin də mövqeyinin maneə ola biləcəyini istisna etmirlər.

Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü Fəda Hüseyn Maliki deyib ki, Məclisdə Taliban rəhbərliyinə qarşı ”diplomatik olmayan tədbirlər” təzyiqini artırmaq məsələsi gündəmdədir: ”Bizim ixtiyarımızda bu məqsədlər üçün istifadə edə biləcəyimiz çoxlu alətlər var”. Onun sözlərinə görə, Tehranın Taliban hərəkatının diplomatik mövcudluğu ilə bağlı yanaşmalarına yenidən baxmaq və bu yaxınlarda onlara təhvil verilmiş Əfqanıstan səfirliyinin binasını geri almaq hüququ var. ”Biz onlara istədikləri hər şeyi verdik, hətta fars və puştu dilində danışan dostlarımızla münasibətlərimizi pozduq” deyə Maliki təəssüflənib. Əlavə edib ki, İran rəhbərliyi qonşusunu sakitləşdirmək siyasətinə tamamilə yenidən baxmalıdır.

Tehran hesab edir ki, Taliban onun strateji resurslara çıxışını əngəlləmək üçün Helmand kimi mühüm çaylar üzərində qəsdən bəndlər yaradır. Məclis ölkənin cənub-şərqindəki Sistan və Bəlucistan əyalətində quraqlıq səbəbindən yaşayış məntəqələri tədricən boşalmaqda olan ”fəlakəti” aradan qaldırır. Bu ərazi özünün həddindən artıq isti və quru iqlimi ilə tanınır ki, bu da çay problemləri ilə birləşərək nəzərəçarpacaq fəlakətə çevrilir. Bu il yüksək temperatur və uzun müddət davam edən quraqlıq yerüstü suların intensiv buxarlanmasına səbəb olub, iranlı mütəxəssislər hətta transsərhəd su obyektləri qrupu olan Hamun bataqlıqlarını da hücuma məruz qoyublar.

Helmand suları uzun illərdir ən mühüm gərginlik mənbələrindən biri olub. Mayın sonunda çay mübahisəsi İran-Əfqanıstan sərhədində silahlı toqquşmaların baş verməsinə səbəb olub, nəticədə İslam Respublikasının sərhədçisi həlak olub. Tehran iddia edib ki, Taliban ilk olaraq Sasoli keçid məntəqəsini atəşə tutub və bu, ”qətiyyətli cavaba səbəb olub”. Sistan və Bəlucistan və İranın Nimruz əyaləti arasında yerləşən bir neçə yaşayış məntəqəsi müharibə meydanına çevrilib və yüksək səviyyəli Taliban rəsmiləri İranı quru əməliyyatı ilə hədələyiblər ki, bu da ikitərəfli münasibətlərdə böyük dəyişikliklərə səbəb olub.

Malikinin sözləri bu həftələrdə İran tərəfində ritorikanın kompleks şəkildə sərtləşməsinin ilk əlaməti deyil. Bu ay İslam Respublikasının xarici işlər naziri Hossein Amir Abdollahian bildirib ki, son aylarda İslam Dövlətinin liderləri İraq, Suriya və Liviyadan Əfqanıstana uçublar. ”Bu, Talibanın üzləşdiyi problemlərdən biridir”, - XİN rəhbəri vurğulayıb. Onun şərhləri Kabil tərəfindən düşmənçiliklə qarşılanıb. Taliban Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Əbdül Kahar Bəlxi rişxənd etmədən Tehranın yaraqlıların köçürülməsi ilə bağlı məlumatları Əfqanıstan rəhbərliyi ilə bölüşəcəyinə ümid etdiyini bildirib. O, qonşuları iqtisadi, siyasi və sosial məsələlərdə konstruktiv mövqe tutmağa çağırıb. Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi işçisi, Müasir Əfqanıstanın Tədqiqi Mərkəzinin direktoru Ömər Nessar söhbətində ”Suyun sistematik çatışmazlığı İranın iki sərhəd vilayətinə ciddi ziyan vurur” deyə bildirib. ”Ona görə də Tehran üçün su məsələsi mühüm daxili siyasi mövzuya çevrilir. İctimai təzyiq bu problemi yerli siyasətçilərin hesablaşmalı olduğu tendensiyaya çevirir. Şübhə etmirəm ki, lap əvvəldən Tehran və Taliban hakimiyyətə gəldikdən sonra münasibətlərin başında su məsələsi dayanırdı”. Tehran Kabilin yeni hakimiyyətlərinə müəyyən güzəştlər edib, lakin Əfqanıstana bütün təsir rıçaqlarından əl çəkməyə hazır olmadığını göstərib.

”Taliban öz rəsmi bəyanatlarında köhnə razılaşmalara sadiq qaldıqlarını vurğulayaraq suyun çatışmazlığına da istinad edir, lakin iranlı mütəxəssislərin Əfqanıstan tərəfdən çayın axınını tədqiq etməsi ilə razılaşmır”, - Nessar bildirib. Su qıtlığı ilə yanaşı, Talibanın mövqeyinə bir sıra digər amillər də təsir edir. Məsələn, Talibanın İrana hücum etməsində maraqlı olan xarici oyunçular qonşular arasında uzunmüddətli müharibənin baş verməsini istəyir və buna çalışırlar.

**V.VƏLİYEV**

## ”Ermənilər aksiyalar vasitəsilə təxribatlar törədə bilər”

”Erməni tərəfinin Laçın sərhəd buraxılış məntəqəsi ətrafında aksiya keçirmək cəhdlərinə bir neçə aspektdən yanaşmaq lazımdır. İlk əvvəl bu ermənilərin burada təxribat törətmək və bu təxribata Azərbaycan sərhədçilərini cəlb etmək istəklərindən irəli gələ bilər”. Bu fikirləri politoloq Elşən Manafov ”Səs” qəzetinə açıqlamasında deyib. Onun sözlərinə görə, qarşı tərəfin hətta qanunvericilik kontekstində bu aksiyaların qarşısını almaq istəyi isə erməni tərəfinə bu layihənin digər məqsədlərinin həyata keçirilməsi işinə şərait yaratmalıdır, əlbəttə, erməni tərəfinin düşündüyünə rəğmən: ”Birincisi, erməni tərəfi bu aksiyalar zamanı Azərbaycan sərhədçiləri və Rusiya sülhməramlıları arasında təxribat yaratmaq və onları qarşıdurmaya sürükləmək cəhdlərində buluna bilərlər.

İkincisi, bu amildən onlar Azərbaycan və Rusiya arasında münasibətlərdə gərginlik yaratmaq kontekstində yararlanmağa çalışa bilərlər. Üçüncüsü, Rusiya sülhməramlılarının loyal qalacaqlar təqdirdə, onlar Rusiyanı növbəti dəfə öz sülhməramlı missiyalarını yerinə yetirməməkdə ittiham edib, erməni cəmiyyətində anti-Rusiya ovqatının qızışdırılması üçün növbəti dəfə yararlanmağa çalışacaqlar, bu isə Paşinyan rejiminin maraqlarına cavab verir, zira Ermənistanda Rusiya təsir dairəsinin məhdudlaşdırılması və perspektivdə Ermənistanın Rusiyadan uzaqlaşması Paşinyanın Qərbdəki havadarları tərəfindən onun qarşısında qoyulan əsas vəzifələrdən biridir.

Dördüncüsü, təxribat sülh danışıqlarına əngəl törətmək və Azərbaycanı danışıqlarda vasitəçilik edən geosiyasi güc mərkəzləri qarşısında arzuolunmaz vəziyyətdə qoymaq istəklərindən də irəli gələ bilər. Beşincisi, heç şübhəsiz ki, təxribat erməni tərəfinə informasiya müharibəsinin aparılmasında əlavə stimul verəcək və onu guya ki, Laçın dəhlizində Qarabağdakı ermənilərə məhdudiyyətlər yaratmaq, onu humanitar fəlakət həddinə çatdırmaqla bu bölgəni tərk etmək məcburiyyətində qoymaq kimi olaylarda ittiham etmək və digər bu kimi məsələlərdə ittiham etmək imkanlarını qazandıra bilər. Paşinyanın Azərbaycanın Qarabağ üzərində suveren hüquqlarının tanınması kimi bəyanatları ona Ermənistan və Qarabağda olan etimadının azalmasına səbəb olduğundan istisna deyil ki, bu aksiyalardan Paşinyan rejimi daxili auditoriyaya və Qarabağdakı erməni icmasına təsir etmək ampluasından da istifadə oluna bilər”.

**GÜLYANƏ**

# Ekspert: "Ermənistana Qərbdən silah tədarükü 2003-cü ildən başlayıb və davam edir"

## Aleksey Fenenko: Separatçılar erməni lobbisinin və xarici qüvvələrin əlində alətdir. Amma heç nəyə nail olmayacaqlar



Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko Ermənistan-Azərbaycan nizamlanması ətrafında baş verən son hadisələri "Moskva-Baku" portalına şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında bəyan edib ki, onun Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə İlham Əliyevlə Brüsseldə keçirdiyi görüş Laçın yolunun "blokdan çıxarılması" məsələsində nəticə vermədi...***

- Heç kim şübhə etmir ki, Paşinyana bu lazım deyil. Yolun açıq və ya bağlı olmasının fərqi yoxdur, İrəvanın şərhinə görə, Ermənistanın baş nazirinin məhz belə bir vəziyyəti təqdim etməsi sərfəlidir. Aydın idi ki, Brüssel danışıqları ilə bağlı Nikol Paşinyan Rusiya və Azərbaycan liderləri ilə imzalanmış üçtərəfli bəyanatı yerinə yetirmək yox, danışıqları sonsuza qədər uzatmaq üçün mütləq hansısa qarmaq tapacaq. Bəlkə də məsuliyyətdən yayınmaq üçün növbəti dəfə görüşü pozmaq istəyib. Amma alınmadı. Bütün bunlar bir daha təsdiqləyir ki, erməni tərəfi zamanla oynayır. Laçın yolunun kəsilməsi yoxdur. Amma Ermənistan nəsə fikirləşməlidir ki, Azərbaycanla danışıqlar aparmasın, razılaşmaları yerinə yetirməsin və ya Bakını ömründə heç vaxt etmədiyi və etməyəcəyi şeylərdə ittiham etməsin.

İndi avropalılar çox fəal şəkildə qışqırırlar ki, Azərbaycan Laçın yolunu açmalıdır. Əksər hallarda Fransa bu cür isteriya dalğalarında maraqlıdır. Amma görürük ki, Avropa Şurasının rəhbəri də belə çağırışlar edir, Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi, Avstriya Xarici İşlər Nazirliyinin rəhbəri və s. Bizim vaxtaşırı gördüyümüz Avropa İttifaqının Azərbaycan əleyhinə müxtəlif qətnamələri də var.

Bu gün Aİ-də Cənubi Qafqaz istiqaməti Fransa tərəfindən ələ götürülüb. Paris öz mövqeyini bütün Avropa İttifaqının fikri kimi təqdim etməyə çalışır və bununla manipulyasiya etməyə çalışır. Yeri gəlmişkən, diqqət yetirin, Qarabağdakı separatçıların nə qədər aydın isteriya yaratdıqlarına və onların "fəaliyyətlərinə", özü də Avropa İttifaqı rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqları fonunda.

Qarabağda separatçıların və qondarma "ümummilli hərəkat"ın yeni dalğalarının arxasında qızışmış erməni millətçiliyi, İkinci Qarabağ müharibəsinin qisasını almağa cəhd edən "Qarabağ klanı"nın qalıqları dayanır. Xaricdəki erməni diasporu həmişə separatçıların və qisasçıların tərəfindədirlər. Bu, onların "milli" ideyasıdır. Üstəlik, separatçıların bu cür qəzəblənmələri ilə Paşinyan özü də oynayır. Onun üçün faydalıdır. O, Parisdən, dolayısı ilə Vaşinqtondan dəstək aldığını hiss etdi və danışıqları gecikdirmək və pozmaq kimi köhnə taktikadan istifadə etmək qərarına gəldi.

Separatçılar bütün günahlarda Ermənistanın baş nazirini ittiham edəndə Rusiyanın, ABŞ-ın, Fransanın səfirliklərini dolaşırlar- bu, belə bir tamaşadır. Separatçılar əslində anlayırlar ki, şansları yoxdur. Beynəlxalq aləmdə heç kim onlara kömək etməyə qaçmayacaq, heç kim onlar üçün döyüşə getməyəcək- nə Rusiya, nə Fransa, nə də başqası. Hətta Ermənistan separatçı Qarabağı müstəqil kimi tanımayıb. Amma indi Paşinyanın başqa bir fürsəti var: "Mən əlimdən gələni etmişəm və edirəm, amma Qarabağ sakinləri mənə təzyiq edirlər və mən onlarla görüşməyə məcburam".

Separatçılar və Paşinyan birgə "işləmir", sadəcə olaraq, Ermənistanın baş naziri bu fürsətdən istifadə edir. Paşinyan hansısa yolla onların tərəfdarı olduğunu göstərməyə çalışır, lakin eyni zamanda separatçılardan qorxur, çünki onlar "Qarabağ kartı" ilə Ermənistan siyasətində mühüm amil olaraq qalırlar.

Separatçılar yalnız müxtəlif qüvvələrin alətidir. Və heç nəyə nail olmayacaqlar. Dəstək olmasaydı (o cümlədən İrəvandan) heç nə edə bilməzdilər, çoxdan əzilmişdilər. Bu isə Qarabağ ətrafında vəziyyətin sabitləşməsinə əsas maneələrdən biridir.

Biz xatırlayırıq ki, İkinci Qarabağ müharibəsindən sonra erməni müxalifəti Paşinyanın devrilməsi çağırışı və revanş gündəliyi ilə əhalini necə ayağa qaldırmağa çalışdı və nəticədə əhalinin belə bir gündəmi qəbul etmədiyini özləri də etiraf etdilər. Əhali başqa şeylər arasında buna reaksiya vermədi, çünki hakimiyyət belə bir gündəmə müdaxilə etdi. Ermənistanın baş naziri sülh danışıqları aparacağını bildirsə də, faktiki olaraq onun mümkün qisas üçün Ermənistanı yenidən silahlandırmaq niyyətində olduğu nəzərdə tutulurdu. Onun bu işdə uğur qazanıb-qazanmaması başqa sualdır, amma o, belə taktika seçir.

Qeyd edək ki, Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Brüssel danışıqlarının nəticələri çox həyəcanvericidir. Onlar erməni tərəfinin güzəştə getmək istəmədiyini çox gözəl nümayiş etdirirlər. Və bildiyimiz kimi, güzəştə getmək istəməmək adətən şiddətli toqquşma ilə müşayiət olunur.

Ümumiyyətlə, Çarlz Mişelin görüşdən sonra verdiyi bəyanatda ermənipərəst ifadələr yox idi. Ermənistan və separatçılar ABŞ, Fransa, Aİ-dən Azərbaycana qarşı sanksiyalar tətbiq etməyi tələb edirlər, lakin təbii ki, belə bir şey mümkün deyil. Qərbdən belə bəyanatlar olsa, sözdə qalacaq. Heç kim Ermənistan, separatçılar naminə Azərbaycanla əlaqələri kəsməyəcək. Lakin Paşinyan sanksiyalar ideyasının təbliğindən yapışa bilər.

Azərbaycan müxtəlif qüvvələrin güclü təzyiqi altında müqavimət göstərməyi bacarır. Bundan başqa, Bakı başa düşür ki, Paşinyan yıxılarsa, Ermənistanda hakimiyyətə çox daha təhlükəli və aqressiv qüvvələr gələ bilər.

Rusiya indi separatçıların etirazları fonunda problemi məcburi şəkildə həll etməyə çalışır. Rusiya Xarici İşlər Nazirliyi bəyan edib ki, hazırda liderlərin görüşü və sülh sazişinin imzalanmasının mümkün işlənməsi imkanı ilə Rusiya, Azərbaycan və Ermənistan xarici İşlər nazirlikləri rəhbərlərinin görüşü hazırlanır.

Bu gün təəssüf ki, Rusiya Federasiyasının imkanları çox məhduddur. Rusiya Federasiyasının başı indi Ukraynada keçirilən xüsusi əməliyyata qarışıb. Paşinyan bunu başa düşür və buna görə də özünü necə aparmaq ona sərf edirsə, elə aparır.

Bu gün Moskva Ermənistanı yalnız dinc yolla kompromisə sövq edə bilər. Eyni zamanda, təəssüf ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin yeni görüşünün ciddi nəyəsə gətirib çıxaracağı inandırıcı deyil. Daha doğrusu, hər şey tərəflərin danışıqlar prosesini davam etdirmək niyyətində olduqları barədə bəyannamənin imzalanması ilə məhdudlaşacaq. Və bu, artıq böyük nailiyyət sayılacaq. Ancaq Moskva üçün barmağının nəbzində olduğunu göstərmək son dərəcə vacibdir.

Bundan əlavə, biz amerikalıların Rusiya və KTMT ilə tərəfdaşlığını pozmaq üçün Ermənistanı tədricən öz tərəfinə çəkmək taktikasını görürük. Rusiya və Ermənistanın gündəmində olan bütün məsələləri İrəvan bu gün ABŞ-la müzakirə edir. Ermənistan nəhayət, ABŞ-ın tərəfinə keçmək istəyir. Əgər amerikalılar onlara bundan dividendlər vəd etsələr, məncə, Ermənistanın Rusiya Federasiyasından dərhal imtina edəcəyinə hazır olmalıyıq.

Eyni zamanda, gördüyümüz kimi, Fransa Senatı Ermənistana silah tədarükünü intensivləşdirməyə çağırıb. Məlumat var ki, çatdırılma bir neçə ay əvvəl başlayıb, amma əslində çatdırılma 2003-cü ildən davam edir. Ermənistanla NATO-nun birgə təlimləri təcrübəsini xatırlayaq. Əslində bunun əsası son 20 ildə yaradılıb. İndi sual yaranır ki, belə əməkdaşlıq nə qədər tez açıq fazaya keçəcək.

Ermənistan tərəfindən guya Qarabağda Azərbaycanın planlaşdırdığı hansısa "erməni soyqırımı" ilə bağlı davam edən informasiya təbliğatına gəlincə. Bildiyiniz kimi, müxtəlif ölkələrdə güclü erməni diasporları var ki, onlar bu cür şüarlar irəli sürməklə öz "erməni kimliyi" ideyalarını reallaşdırmaqda davam edirlər. Onlar çoxdan yerli hakimiyyətə sızıblar və buna qarşı çıxmaq hətta ABŞ-da çox çətinləşir. Onlar bütün bu "nağılları" İrəvandan dinləməyə hazır olan güclü auditoriyalarını yaradıblar. İkinci Qarabağ müharibəsi fonunda vəziyyət bir qədər yaxşılaşsa da, biz uzun illərdir Rusiyada oxşar vəziyyəti görürdük.

Azərbaycan təcili olaraq informasiya siyasəti qurmalı və onun informasiya gündəmini dəstəkləməyə hazır olan ölkələr qrupunu müəyyən etməlidir. Ən əsası isə Bakının həmin hadisələrlə bağlı ictimai məkana daha çox tarixi faktlar verməsi vacibdir.

Heç bir "soyqırım"dan söhbət gedə bilməz, belə bir şey yoxdur. Erməni tərəfi Azərbaycanın Qarabağda bu cür guya "soyqırımı" törətməsinin sübutu ilə bağlı suala cavab olaraq dərhal susdu. Hər kəs Almaniyanın keçmiş həbs düşərgələrini görməyə gələ bilər. Ermənistan sübut kimi nə göstərə bilər?! Heç nə.

Azərbaycan tarixən həmişə kifayət qədər dinc ölkə olub. Amma erməni radikallarının azərbaycanlılara qarşı vəhşiliklərinin tarixi faktları ortadadır. Eyni Xocalı hadisələri və ya 20-ci əsrin əvvəllərində daşnakların Azərbaycan şəhərlərində apardıqları etnik təmizləmə. Bu barədə daha çox danışmaq, informasiya məkanında daha fəal siyasət aparmaq son dərəcə vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



MƏTANƏT

# Dörd divar nə üçündür?..

***Dünya binə olandan insanlar ev qurub içərisində yaşayıblar. Çox da gözəl ediblər. Çünki bir ailənin dörd divar arasında, bir evdə yaşaması, orada dərd-sərini bölüşməsi, gündəlik həyatını məxsus olduğu birliyin üzvləri ilə paylaşması tamamilə doğru düşünülmüş məsələdir.***

Zamanla xalq arasında evlə-dörd divarla bağlı deyimlər də formalaşıb. Bir söz-söhbət olanda ata-babalarımız ailəyə onu dörd divar arasında həll etməsini tövsiyə edib. Sözün evdən bayıra çıxmamasını məsləhət biliblər. Ana-nənələrimiz qızlarını ər evinə yola salanda da ona səsinin dörd divardan bayıra çıxmamasını tapşırıblar. Beləliklə ev nədir? Ev pərdədir. Bizim xüsusi həyatımızla ümumi həyat arasına çəkilən pərdədir. O pərdə rahatlığımız, sərbəstliyimiz, müstəqil yaşamağımızla yanaşı, həm də eyib-qüsurlarımızı arxasında saxlaya biləcəyimiz ən etibarlı yerdir.

Bütün bunları səhər işə gələrkən metroda qarşılaşdığım bir ailənin timsalında bir daha yada saldım. Ailə üzvləri olan gənc qadın və kişinin metroda sərnişin qatarının gurultusunu batıran səsləri fonunda düşündüm ki, İlahi, görəsən dörd divar nə üçün imiş? Yolboyu düz iş yerinədək dörd divar haqqında deyilənləri də öz-özümə xatırladım. Əgər elə küçədə savaş elan edəcəkdiksə, dörd divara nə ehtiyac vardı? Hər kəs bir çadır qurub yaşayardı da küçənin ortasında.

Deməli, ər-arvad bir stansiya boyu deyişdilər. Həm də o qədər ucadan deyişirdilər ki, qatardakı hər kəs dönüb onlara baxırdı. Aralarında oturan 5-6 yaşlı qız övladları isə deyişən valideynlərinə tərəf baxır, onların nə üçün dalaşdıqlarının, çığırdıqlarının səbəbini bilməyə çalışırdı.

Qatardakı hər kəs həm də bu səs fonunda bir-birinə baxırdı. Bütün nəzərlərdən də eyni sual yağırdı: bunlar görəsən problemlərini evlərində-dörd divarları arasında nə üçün həll etməyib, bayıra çıxarıblar. Əslində, bizə belə bir tərbiyə də veriblər ki, uşağın yanında əsla dalaşmaq, səsi yüksəltmək olmaz. Lakin görünür, bu ər-arvad ya həmin məsləhətləri eşitməyib, tərbiyəni almayıb, ya da bir qulağından alıb, o biri qulağından ötürüb havaya. Nəticə isə göz önündədir.

Nə isə, qatar dayandı, lakin deyişmə sona çatmadı. Yaranan sakitlik də bu qadınla kişiyə təsir etmədi. Elə deyişə-deyişə də metro stansiyasını tərk etdilər. Yanlarındakı uşaq isə hələ də təşviş içərisində o tərəf-bu tərəfə dönməkdə idi. Aqressiv valideynlər özlərindən asılı olmayaraq uşağın əlindən elə möhkəm yapışmışdılar və elə sürətlə yeriyirdilər ki, uşağın ayaqlarının yerdən üzüldüyü hiss olunurdu.

Həqiqətən də kaş ki, insanın özünə kənardan baxmaq kimi bacarığı olardı. Bu halda görə bilərdi ki, dörd divar arasında qalmalı olan məsələləri özü ilə birlikdə bayıra çıxaranda, necə görünür. Düşünürəm ki, özümüzə aid söhbətlərin başqalarını da narahat etməməsi və mədəniyyətimizin nə səviyyədə olduğunu sərgiləməməsi üçün dörd divardan kənara çıxmasaq, daha məsləhətli olar.

# Zəfər tarixini yazan gənclərimiz

*İlham Əliyev: "Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib"*

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühitinin formalaşması gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlərin uğurla həyata keçirilməsinin təzahürüdür. Dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Bugünki gənclik azad fikirli və düşüncəli, cəsarətli, bilikli, vətənpərvər gənclikdir. Müstəqil dövlətin nümayəndəsi kimi dünyaya çıxan və müxtəlif səpkili tədbirlərin iştirakçısı olaraq qalibiyyət əldə edən, kreativ gənclikdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən böyük bir ordudur. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

## ”HƏR BİR XALQIN, HƏR BİR MİLLƏTİN, HƏR BİR ÖLKƏNİN GƏNCLƏRİ ONUN HƏM BU GÜNÜDÜR, HƏM DƏ SABAHIDIR, ÜMİDİDİR”

Ulu Öndər Heydər Əliyevin ”Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir” fikri, dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir. Ulu Öndər gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşmış, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermiş, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ümummilli Liderin gənclər forumunun təşkili ilə bağlı 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Ulu Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoymuşdur. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

1999-cu ildə ”Dövlət gənclər siyasəti haqqında” Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi, 2002-ci ildə ”Gənclər siyasəti haqqında” Qanunun qəbulu Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğının və etmadın nümunəsidir. Bu gün dövlət gənclər siyasəti ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünki Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellekt yetişir. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da ”Azərbaycan Gəncliyi Dövlət Proqramı”nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. ”2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı” gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsidir. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. 2017-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə növbəti ”Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı təsdiq edildi. Bu proqram dünyada gedən prosesləri nəzərə alaraq, növbəti illərdə də Azərbaycan gənclərinin vətənpərvərlik, onlar tərəfindən innovativ düşüncə və rəqabətə davamlı biliklərin əldə olunması, yüksək texnologiyalar və informasiya mühitində sərbəst davranışının təşviqini zəruri etmiş oldu.

Dövlət Proqramının əsas məqsədi isə respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsini təmin etməkdir. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır.

## İDMAN VƏ BƏDƏN TƏRBİYƏSİNİN İNKİŞAFI DÖVLƏT SİYASƏTİNİN PRİORİTET QOLLARINDAN BİRİNƏ ÇEVRİLDİ

Gənclər siyasətindən söz açarkən, idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasını qeyd etməliyik. ”Sağlam bədəndə sağlam ruh olar” prinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir. Ölkəmizdə idmana qayğı bu sahənin inkişafına böyük töhfələr verir. Qeyd edək ki, müstəqilliyimizin ilk illərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi də diqqətdə duran məsələlər sırasında idi. Ulu Öndər Heydər Əliyev hələ ölkəmizə sovet dövründə rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. Ümumilikdə. ötən əsrin 70-ci illərində Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük dönüş yaratmış oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin



əsası qoyuldu. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi üçün Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim Ümummilli Lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı.

## ”ASAN XİDMƏT”DƏ İŞLƏYƏNLƏRİN MÜTLƏQ ƏKSƏRİYYƏTİ GƏNCLƏRDİR

Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü məhz gənclərdir. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin ”Könüllülər ili” elan edilməsi haqqında Sərəncam imzaladı. Ölkəmizdə təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi onlar ayrı-ayrı təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülər hərəkatı ”ASAN xidmət”dən başladı və bu gün ”ASAN xidmət”də işləyənlərin mütləq əksəriyyəti gənclərdir.

2018-ci ilin noyabr ayında Gənclərin İnkişaf və Karyera Mərkəzi Azərbaycan Respublikası Gənclər Fondunun nəzdində fəaliyyətə başlayıb. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2019-cu il tarixli 1 oktyabr tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması məqsədilə ölkənin şəhər və rayonlarındakı Heydər Əliyev Mərkəzlərində GİKM-in nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi qərara alınmışdı. Gənclərin hərtərəfli inkişafının təmin olunması, əlavə bilik və bacarıqlara yiyələnməsi üçün GİKM nümayəndəlikləri tərəfindən müxtəlif peşə təlimləri, təhsil və təcrübə, könüllülük, görüşlər, seminarlar, intellektual oyunlar və digər tədbirlər təşkil olunur. Nümayəndəliklər vasitəsilə regionda yaşayan gənclər dövlət tərəfindən onlar üçün yaradılan imkanlar barədə məlumat və məsləhət almaq, həmçinin müxtəlif proqramlara müraciət və onlarda iştirak etmək imkanı qazanırlar. Respublikanın 55 şəhər və rayonunda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri fəaliyyət göstərir.

Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib”. Cənab Prezident bildirib ki, Onun Azərbaycana rəhbərliyi dövründə yetişən insanlar bu torpaqları azad etdilər: ”Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi  Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.”

Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu gün Azərbaycan belə oğulları ilə qürürlanır, fəxr edir. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olmasını qorumaq və saxlamaq üçün gənclər yaxşı təhsil almalı, çox çalışmalı, peşələrinə yaxşı yiyələnməli, vətənpərvər olmalıdırlar. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Bu, Qarabağla, onun dirçəldilməsi ilə bağlı mənəvi məsuliyyətdir. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Vüsal anı...

***Günortaya yaxın Uzunoba gölü Günəşin zərrin şüaları altında par-par parıldayırdı. Sanki günəş bu gün bütün gücünü toplamış, ətrafın nur payını da bir neçə saatlıq onlardan əsirgəyib gölün üzərinə salmış, onu aydınlatmaqdan, parıldatmaqdan xüsusi zövq alırdı. Göl isə bu nəvazişin qarşısında səmanın mavisini yaşıla çalan sularına qatıb günəşin parlaqlığı altında elə bir rəng harmoniyası yaratmışdı ki, baxdıqca bu gözəllik qarşısında heyran qalırdı insan.***





Cənnət bəzən gözlərimizin qarşısına gəlir, lakin biz onun fərqində olmuruq. Bəlkə də cənnətə yollanan insanlar üçün bir anlıq cənnət bu dünyaya qonaq gəlir, aparacağını da qoynuna alıb birdən qeybə çəkilir. Yoxsa hər gün gözlərimiz önündə olanlar bir anlıq nə üçün bu qədər füsun saçsınlar ki...

Uzunobaya cənnət gəlmişdi, vallah. Çimərlik ətrafındakı yaşıllıq, səmanın və günəşin sulara təması burada min bir rəng tonu yaratmışdı. Bu harmoniyanı burada istirahət edənlərin söhbətləri, gülüşləri, çal-çağırı daha da canlandırırdı, gözəlləşdirirdi...

Günəşin cənnəti Uzunoba gölünə qonaq çağırmasında bir məna gizlənirdi. Burada istirahət edənlərin heç birinin ağlına gəlməyəcək bir məna vardı həmin gün gölün sularında. Bu gözəllik nədir, heç bunu sual edən olmuşdumu görəsən? Bu gözəlliyi duyan necə, olmuşdumu? Yoxsa hamının başı istirahətə qarışmışdı, bu gözəllik onları məst etmişdi? Nə etsinlər? Az sonra bu gözəlliyin fonunda nələrin baş verəcəyindən haradan xəbərləri olardı?..

Xəbərsizdilər, bəli. Bir az sonra hər birimizin sevdiyimiz, ”həyatdır” dediyimiz, bəlkə də saatlarla, günlərlə tamaşasına dayana biləcəyimiz suyun sərt üzünü də görəcəkdik. Bu ucsuz-bucaqsız göl bizə göstərəcəkdi ki, su heç də tək baxdıqca doymadığınız dəniz, göl, çay, şəlalə, bulaq deyil. Göstərəcəkdi ki, heç bir alət olmadan dalğaları ilə musiqi səsləndirən, həzin bir nəğməni qulaqlarımıza pıçıldayan sular heç də həmişə belə nəvazişli deyil, o sakit dalğalarda, o lal sükutda bir hayqırtı var... Göstərəcəkdi ki, həm də hüsnünə aşiq etdiyi bizləri bəzən sevdasından yanına aparmaq gücündədir...

Elə bu xoşbəxtlik, səsin-küyün qulaqbatırıcı gurultusu anında birdən ətrafa o çal-çağırı donduran yeni bir səs yayılır. Bir ananın övladının sulara qərq olması ilə fəryadı başlayır. Bir andaca gözünün qarşısından kənarlaşan 13 yaşlı balasının sulara qərq olmasını gözləri qarşısında izləyən ananın fəryadı səhərdən bəri bu gözəlliklər fonunda istirahət edən insanların hər birinin həyəcanına çevrilir. Artıq hər kəs uşağın xilası üçün yollar axtarır. Onu anasına qaytarmaq, bir ananın övlad itkisini yaşamaması üçün hər kəs əlindən gələni etmək istəyir. Lakin dörd bir tərəfin su olması, tutacaq, yapışacaq bir vasitənin yoxluğu insanların çarəsizliyini nümayiş etdirir.

Kənardan heç kimin tanımadığı bir nəfər özünü şahin kimi suya atır. Artıq bu zaman ana da oğlunun yanında idi. Onu xilas edəcəkmi, bilməyəcəkmi düşüncəsini əsla ağlına gətirə bilməyən ana xilası üçün övladının yanında idi. Heç kimin tanımadığı, həyatı bahasına özünü sulara qərq edən bu şəxsi hamı sanki nəfəs almadan izləyirdi. Az sonra 13 yaşlı uşağın halsız bədəni onun qolları üzərində sahilə yol almışdı. Lakin arxada bir ana qalmışdı. Övladı üçün mübarizə edən, sularla savaşan bir ana vardı. Övladı xilas edilərkən özü sulara qərq olmada idi. Odur ki, bu aslan igid yenidən o səmtə qayıtmalı idi. Onu sulara bir uşağın-bir həyatın xilası üçün çağıran qeyrəti, namusu, vicdanı indi də ananın xilası üçün geriyə səsləyirdi. Lakin geridə tam başqa bir qarşılanma, yeni bir həyat gözləyirdi onu. Bundan xəbərsizcə igid oğlan yenidən hadisə yerinə qayıdır. Burada həm ananın xilası, həm də onu səsləyən yeni həyatla mübarizə aparmalı idi.

...Sular onu ağuşuna dartır. O isə onlardan qurtulub bir qadının xilası üçün çabalayır. Dörd bir yana əl atır, tutacaq bir dayaq nöqtəsi tapa bilmir. Qadının əlindən, qolundan yapışıb onu suyun üzərinə dartdıqca, aşağıdan daha güclü bir qüvvə onların hər ikisini özünə tərəf çəkir. Nədir bu qüvvə, nədir suların altındakı möcüzə? Bütün bunları düşünməyə vaxtı olmayan igidi yalnız bir amal düşündürür: ananı xilas edib balasına qovuşdurmaq...

Ətrafa gecə qədər qaranlıq bir sükut çöküb. Gölün dərinliklərinə doğru yol alan iki nəfəri təlaş içərisində izləyir insanlar. Nə yaxına gedə, nə kömək edə bilirlər. Gölün üzərində qorxunc bir kabus meydan sulayır. Sadəcə, kənardan seyrçi olaraq donub yerlərindəcə qalıb bu qədər insan. Gölün ortasında isə iki nəfər həyatla mücadilə edir. Bu savaş bitəcəkmi? Gölmü, yoxsa bu iki nəfərmi qalib gələcək, ətrafdakıların da, gölün suları ilə mübarizə aparan qadın və kişinin də düşündükləri yalnız bu idi...

Mübarizə isə davam edirdi. İgid qadını xilas etməyə çalışırdı. Onlar aradabir görünür, sonra yenidən gözdən itirdilər. Bir neçə dəqiqənin içərisində bu hal dəfələrlə müşahidə olunur. Lakin bir qədər sonra onlar ta görünmürlər. Deməli, onlar deyil, göl bu mübarizədə qalib gəlmişdi. Sular daha güclü olmuşdu. Onların hər ikisini böyük qüvvə ilə özünə tərəf çəkib qərq etmişdi.

Bir anda göl sanki uğuldadı. Bu, insanların təşvişdən ucalan səsləri idi. Və bir andaca da sükut o səslərin üzərinə qalın bir pərdə çəkdi. Artıq hamı əmin idi ki, onlar batdılar, xilasları mümkün deyil.

Bayaqdan bəri göl üzərində cənnət yaradan günəş də birdən-birə yoxa çıxdı. Gölün üzərinə qalın bir bulud çökdü. Bəzən təbiəti cansız, hissiyyatsız hesab edənlər olur. Lakin təbiət axı canlıdır, onun da bizim kimi 6-cı, 7-ci hissi var, əvvəlcədən hissetməsi var. Elə ona görə deyildimi həmin günün günəşinin, suların gözəlliyi də... Bütün bunlar nə üçünmüş? Sən demə buradan cənnətə doğru bir yol açılacaqmış. Həyatını ortaya qoyan, hadisədən xeyli sonra haqqında məlumat alacağımız polis nəfəri Vüsal hər kəsin gözləri önündə cənnətlə vüsal anını yaşayacaqmış. Hamı da bu anın seyrçisi olacaqmış. Həyata qaytardığı, neçə-neçə vüsallar ardınca göndərdiyi 13 yaşlının vüsalının da, özünün cənnətlə vüsalının da şahidi olacaqmış buradakılar...

Ürəklərimizi alt-üst edən hadisədən iki gün keçib. Axşamdır. Xəbərlərə nəzər salıram. Qarşıma Prezident İlham Əliyevin Naxçıvandakı Uzunoba gölündə boğulan uşağı xilas edən mərhum polis Vüsal Quliyevlə bağlı imzaladığı Sərəncam çıxır. Sərəncama əsasən, öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyev ”İgidliyə görə” medalı ilə təltif edilib (ölümündən sonra).

Ürəyim qürur hissi ilə dolur. İki gün öncə baş verən hadisə nə qədər ağır, kədərli idisə, Vüsalın ölümündən sonra təltif edilməsi bir o qədər qürurludur. Çünki Vüsal orada Azərbaycan polisinin rəşadətini göstərdi. Uni formada olmayan, insanların arasında ailəsi ilə birlikdə istirahət edən bir nəfərin təhlükə anında suya şahin kimi sıçraması onun cəsarəti, vətəndaş qayesi idisə, bir də polisə məxsus vicdanı, namusu idi. Etməyə də bilərdi. Lakin içindəki vicdanla hadisəyə bir polis əməkdaşına layiq münasibəti qatdı. O, 13 yaşlı uşağı xilas etdi, lakin anasını və özünü xilas edə bilmədi. Həyatı sulara qərq oldu. Ailəsi onu itirdi. Vicdanını vəzifəsi ilə birgə insan həyatının xilasına verdiyi üçün həyata ”əlvida”,- dedi...

Bütün bu fikirlər fonunda gözlərim önündə Azərbaycan polisinin ümumiləşmiş obrazı canlanır. Düşünürəm: bax polislərin hər biri bu cür qəhrəmandır. Dəfələrlə onların şücaətinin, igidliyinin şahidi olmuşuq. Onlar ölkəmizin əmin-amanlığını belə qoruyurlar. Asayişi belə mühafizə edirlər. Onların hər biri vətəndaşımızın xilaskarıdır. Harada təhlükə varsa, Azərbaycan polisi oradadır. Vəzifə başında, təhlükəsizlik axtarışında, xilasetmədədir. Gecəsi-gündüzü, istirahət saatı yoxdur onların. Daim iş başındadırlar. Vüsal kimi onların hər biri bizim üçün canlarından keçərlər. Çünki damarlarında azərbaycanlı qanı axır, həm də müstəqil ölkəmizdə yetişmiş vətənpərvər gənclərdir.

Onlar DİN-nin 100 illik yolunu fəth edəedə gəliblər. DİN-nin təlimləri ilə nümunəvi polis əməkdaşlarına çevriliblər. Odur ki, Azərbaycan polisini sevirik, onlara böyük sayğı və hörmətimiz var.

...Vüsal, səninlə qürur duyuruq. Sən əsl polis nəfərinin obrazını yaradıb, gənclərimizə nümunə qoyub dünyadan köçdün. Ailən bizə, dövlətimizə əmanətdir. Sənin haqqında hələ uzun illər danışacağıq. Çünki sən özün haqqında qürurlu bir tərcümeyi-hal yazdın.

Su həyatdır, gözəllikdir, romantikadır... Lakin həm də ölümdür, fəlakətdir... Bunu əsla unutmayaq. Hər il neçə-neçə insan həyatı dalğalarda sonlanır. Vüsalın, 13 yaşlı uşağın anası Səadət xanımın həyatı kimi. Belə isə okeanları, dənizləri, gölləri, çayları, şəlalələri, bulaqları sevdiyimiz kimi, həyatımızı onlardan da çox sevək, qoruyaq. Çünki yaşamaq gözəlliklərə baxmaqdan, gözəlliklər içərisində olmaqdan daha gözəldir...

***Mətanət Məmmədova***

## Milli mətbuat günü münasibətilə intellektual yarış keçirildi

“Nar”, 22 iyul - Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini artıq ənənəvi olaraq təşkil olunan intellektual yarışmada bir araya gətirib. 20-dən çox media orqanını təmsil edən jurnalistlər 7 komandada biliklərini yarışdırıblar. Bu ilki yarışmada iştirakçılara 7 tur boyunca milli və dünya mədəniyyətinə, tarixə, texnologiyaya aid müxtəlif çətinlikdə suallar verilib. Bununla yanaşı, komanda quruculuğu oyunları ilə media nümayəndələrinin bir-biri ilə daha yaxından tanışolma fürsəti olub.







Qaliblərin seçimi zamanı həm intellekt yarışının xalları, həm də komanda quruculuğu oyununun nəticələri nəzərə alınıb. Nəticə etibarilə, yarışda qalibiyyəti ”Ziya” komandası qazanıb, ”Yeni Həyat” komandası 2-ci, ”Molla Nəsrəddin” komandası isə 3-cü yerləri tutublar. Qalib komandalara ”Nar” tərəfindən xüsusi hədiyyələr təqdim edilib.

”Nar” maarifləndirməni təşviq etmək məqsədilə müxtəlif sosial layihələr həyata keçirir, eyni zamanda intellektual yarışların dəstəkçisi rolunda çıxış edir. Layihələr haqqında daha ətraflı məlumat üçün: https://www.nar.az/projects/ .

# Armenianreport: “Danışan baş Şarmazanov”

*Erməni analitiki Paşinyana qahmar çıxdı, Koçaryan-Sarqsyan cütlüyünü "sürüdü"*







44 günlük İkinci Qarabağ müharibəsinin başlanmasında baiskar olaraq Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan göstərilsə də, bütövlükdə alınan məğlubiyyətin əsas günahkarlarının məhz Koçaryan-Sarqsyan cütlüyünün olduğu da sirr deyil. Məhz bu nüansdan çıxış edən Ermənistanın armenianreport informasiya portalının analitik yazarı Tevos Arşakyan bu günlərdə mətbuat konfransı keçirən keçmiş iqtidar rəsmisi, Serj Sarqsyanın yaxın ətrafından hesab edilən, eləcə də Respublika partiyasının sədr müavini olan Eduard Şarmazanovu sözün əsl mənasında ”sürüyüb”, eləcə də Paşinyana dolayı yolla qahmar çıxıb. Revanşçı müxalifətin Nikol Paşinyanı ittihamlar atəşinə tutmalarını hədəfə alan erməni analitikinin yazdığına görə, müxalifət baş nazirə heç bir şans vermir. O, ”hərb etdin, uduzdun, xainsən, hərb etməsəydin və hər şeyi müharibəsiz versəydin, yenə də xainsən”, deyə yazaraq bildirib ki, keçmiş hakimiyyətlərin simasındakı müxalifət artıq bir ildir ki, fəaliyyətdə olan Nikol Paşinyanı ötənilki müharibədəki məğlubiyyətin əsas baiskarı hesab edirlər.

**”Koçaryanın və Sarqsyanın ehtiyatda 20 illəri var idi və bu müddət Ermənistanın çiçəklənən dövlətə çevrilməsi üçün kifayət idi...”**

SİTAT: ”Bu da ”danışan baş” - sarqsyançı Ermənistanın Respublika partiyasının ideoloqu Eduard Şarmazanov noyabrın 22-də jurnalistlərlə söhbəti zamanı hiddətlə Paşinyanın üzərinə yükləndi. ”Bizim partiya fəaliyyətdə olan hakimiyyətlə 4,5 ilə yaxındır ki, mübarizə mərkəzindədir və ona görə də partiyanın gündəmində bir mühüm vəzifə dayanıb - kapitulyantlardan ibarət olan bu rejimi uzaqlaşdırmaq”, - deyə o bildirib. Jurnalistin Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ probleminin ermənyönlü həlli yoxdur, yalnız ”sadə həll var” fikrinin hansı məqamların dayanması sualını cavablandıran Şarmazanov deyib ki, əgər erməniyönlü həll yolu yox idisə, onda bu qədər böyük itkilərə getməyin nə mənası var idi? Mübahisə etmirəm, Paşinyanın günahı nəhəngdir - o, ordunu təmizlədi, oradan müharibə səriştəsi olan peşəkar zabitləri qovdu, ordunu yenidən silahlandırmağı ya bacarmadı, ya da bacarmağa çalışmadı, aldıqları isə, ümumiyyətlə, effektsiz və yararsız oldu. Ən əsası, 2020-ci ilin 27 sentyabrına isə Ermənistan anlaşılmaz siyasətlə yaxınlaşdı, Paşinyan ruslarla hərc-mərclik edirdi, Qərblə isə tam olaraq dostlaşmamışdı. Nəticədə olduğu kimi - həm Moskva, həm də kollektiv olaraq Qərb erməni xalqının müharibə meydanlarındakı faciəsini izlədilər. Lakin buradakı günah yalnız Paşinyanındırmı? Əgər Nikol Vovayeviçin ifadəsi ilə desək, siyasi sahədə ”qara” o idi, rəqibləri isə birdən-birə ”ağmı” oldular?”, - armenianreportun analitiki sual edib və özü də cavablandırıb: ”Əlbəttə ki, yox. İki il yarım elə də böyük zaman deyil ki, korrupsiyasız, yoxsulsuz ”yeni Ermənistan” qurasan, Qarabağla bağlı danışıqlarda isə birtərəfli güzəştlərdən imtina edəsən. Amma onun xələfləri - Koçaryanın və Sarqsyanın ehtiyatda 20 illəri var idi və bu müddət Ermənistanın çiçəklənən dövlətə çevrilməsi üçün kifayət idi...”

**”Məhz ikinci və üçüncü prezidentlərin kriminal-oliqarx hakimiyyətləri vaxtı Ermənistan yoxsul, idarəolunmaz dövlətə çevrilib”**

Erməni analitiki sual edir və özü də cavablandırır - onlar bunu etdilərmi? Birmənalı olaraq yox: ”Əks halda 2018-ci ilin baharında erməni xalqı Koçaryan-Sarqsyan rejiminə nifrət bəsləyərək onu devirməzdi. Xeyirdən-xeyir axtarmırlar. Ancaq əvvəlki Ermənistanda xeyir olan heç nə yox idi. Məhz ikinci və üçüncü prezidentlərin kriminal-oliqarx hakimiyyətləri vaxtı Ermənistan yoxsul, idarəolunmaz dövlətə çevrilib. Məhz onlar xalqı, ölkəni, ordunu çapıbtalayırdılar.Və Paşinyan onlardan qibtə olunmayacaq irs qazandı və onu müharibəyə qədərki iki il yarımda yoluna qoya bilmədi.

”İndi Şarmazanov - Sarqsyanın yola getməyən balaca iti Paşinyanı tənqid edir ki, o, Qarabağ probleminin erməniyönümlü həlli olmadığı üçün böyük itkilərlə nəticələnən müharibəyə getdi. Bəs erməniyönümlü həll Koçaryanın, Sarqsanın dövrlərində var idimi? Əlbəttə ki, yox idi. Yeganə variant münaqişənin növbəti müddətlərə dondurulması və ”artsaxın” asılı qalan ”statusu”, - deyə yazan analitik nəticənin müharibə olacağının məlum olduğunu yazıb və qeyd edib ki, əvvəl-axır bu, baş verməliydi.

**”Müxalifət Paşinyana hər hansı variant vermir - döyüşdün və uduzdun - xainsən, döyüşmədin və müharibəsiz verdin - yenə də xainsən”**

Tevos Arşakyan Şarmazanovun Paşinyanı hədəfə alaraq tənqid etməsini tənqid naminə olduğunu bildirib və sual edib - axı baş nazir Azərbaycanın hücumu qarşısında, Rusiyanın və Qərbin susqunluğu qarşısında nə etməliydi? ”Əllərini yuxarı qaldırıb türklərdən mərhəmət istəməliydi? ”Artsaxı” müharibəsiz verməliydi? Onda o, daha böyük kapitulyant və xainə çevriləcəkdi və onun, eləcə də ailəsinin həyatlarına görə şəxsən mən bir qara qəpik də verməzdim - xalq onları bağlayıb ilk dirəkdəncə asardı. Bu halda da müxalifət Koçaryanın və Sarqsyanın simasında Paşinyana qarşı hücumlara keçəcəkdilər. Yəni, müxalifət Paşinyana hər hansı variant vermir - döyüşdün və uduzdun - xainsən, döyüşmədin və müharibəsiz verdin - yenə də xainsən”, - deyə armenianreportin analitiki yazıb: ”Hə, müharibə və məğlubiyyət Paşinyanın hakimiyyətində olub və biz uduzmuşuq. Ancaq sona qədər ədalətli olmaq lazımdır - əgər Paşinyan nəhəng itkilərə görə günahkardırsa, həmçinin məğlubiyyətə görə məhkəmə və erməni xalqı qarşısında cavab verməyə məhkumdursa, onda Koçaryan, Sarqsyan, Ohanyan, Xaçaturov, həmin o Şarmazanov kimi sabiqlər də cavab verməlidirlər. Bu, kollektiv məsuliyyətdir, Koçaryanın vaxtından başlayaraq Paşinyan hökumətinə qədər ölkəni belə vəziyyətə gətirən bütün yuxarı hərbi-siyasi dairələr cavab verməlidirlər”, erməni analitiki Şarmazanovun ittihamlarını hədəfə alaraq yazıb.

***Afət Tahirqızı***

ANALITIKA



# Dr. doktorlar

**Lalə Mehralı**

Son bir neçə ilin tibbi xəbərləri, bu sahədə olan yeniliklər, uğurlu əməliyyatlar, peşəkar müayinə və müalicə barədə yazılanlar və danışılanlar bu sözlərlə müşayiət olunur- uzman və dr. İşində uğuru olan, olmayan, peşəkar olan, olmayan bir çox həkimlər qonşu Türkiyədə bəzən bir neçə aylıq, əksər hallarda isə 2 həftəlik seminar-kurslar keçdikdən sonra ölkəmizə qayıdanda adının qarşısına ”uzman” sözünü də artırır. Dr.doktorlar lap şanslıdır, tibbi təhsilə ehtiyac qalmır, əlinə iynə ala bilirsə olur dr.kosmetoloq. Vur çatlasın, çal oynasın, qaz vurub, qazan doldururlar.

Uzman sözü Azərbaycan dilindəki ekspert sözünün türkcəsidir. Tibb fakültəsini bitirən hər kəs həkimdir, lakin konkret sahə seçəcəksə, bu sahənin həkimi, müasir dillə desək, uzmanı olmaq istəyirsə, 3-4 il həmin sahədə asissentlik etməlidir. Yalnız bundan sonra cərrah, oftalmoloq, pediatr, ginekoloq və s. ola bilər. Yəni qısası, uzman həkim deyilirsə, o işinin öhdəsindən gələ bilən, öz sahəsinin eksperti olan həkimlərə deyilir. Qəribə burasıdır ki, əvvəllər bu sahədə baş ağardan, ömrünü peşəsinə həsr eləyən həkimlər yalnız uzun illərdən sonra özünü öz sahəsinin eksperti hesab edirdi. Daha doğrusu onu cəmiyyət, tibb aləmi ekspert hesab edirdi, o özünü belə adlandırmırdı. Amma indi ali məktəbi yenicə qurtarmış, qonşu Türkiyədə bir iki kurs təlimatı oxuyub lovğa-lovğa ölkəmizə qayıdan bütün gənc həkimlər özünü ”uzman” adlandırır.

Dr. da doktorun qısaldılmış formasıdır. Dəbdə olan ifadədir. Bunu virtual platformanın həyatımıza bu qədər çox müdaxiləsindən sonra müşahidə elədik. Ölkədə özünə ”dr.filankəs” deyən adamların sayı durmadan artır. Xüsusilə, kosmetologiya sahəsində vəziyyət dəhşətlidir. Azərbaycan Tibb Universitetində kosmetologiya fakültəsi yoxdur. Yəni bizim ali tibb ocağımız kosmetoloq yetişdirmir. Ona görə də hazırda bu sahə üzrə çalışanların böyük əksəriyyəti ixtisaslı həkim deyillər. Çoxu heç ixtisasca həkim də deyil. Özünə bir instaqram səhifəsi açıb ”dr.kosmetoloq” adı qoyan və insanların sağlamlığı üzərində eksperimentlər keçirən qeyri-peşəkar insanlar göbələk kimi artır.

Süni materialları, naməlum maddələri insanların dodağına, burnuna, yanağına yeridərək müqabilində yaxşı pul qazanan bu insanlara nəzarət yoxdur. Əksəriyyəti bir gözəllik salonu açıb orada fəaliyyət göstərir. Qanunla Səhiyyə Nazirliyi gözəllik salonlarında müvafiq yoxlamalar aparmır, bu işlə prokurorluq məşğul olur, onlar da şikayət əsasında. Yəni əgər şikayət olunmasa bu salonlarda qadınların sağlamlığına qəsdən və ağır formada zərər vurma prosesi elə belə də davam edəcək. Yəni dr.doktorlar ölkədə meydan sulayıb at çapırlar, heç bir rəsmi qurumun vecinə deyil.

Deyəcəksiniz ki, qadınlar niyə şikayət etmir? Etmirlər. Çünki normal halda ixtisasca həkim olan, tibb universitetini burada bitirən, sonra da kosmetologiyaya marağı olub xaricdəki tibb ocağında ixtisası oxuyan peşəkar həkim bu proseduru ”qırdı-qaçdı” etmir. Normalda 200-300 manat tutan peşəkar bir prosedur bu salonlarda 50-70 manata edilir. Məsələn, dodağınıza nə olduğu bilinməyən bir maddəni yeridib sizi istədiyiniz böyük həcmli dodaqlara qovuşdururlar. Sizin başınıza növbəti aylarda nə gələcək, xərçəngə yoluxacaqsınız, dodağınız çürüyəcək, burnunuz qopub düşəcək, bu onlar üçün maraqlı deyil. Öz sağlamlığına dəyər verməyən pasiyent onlar üçün potensial ovdur.

Dr.kosmetoloq adlandıran bu insanların işinə nəzarət mexanizmi hazırlanmalı, həyata keçirilməlidir. Hər zirzəmidə bir salon, hər salonda 2-3 belə adam qadınların üzərində təcrübə keçib həkim olmaq sevdasına düşür. Hər gün bir tibbi-kosmetoloji prosedur kəşf edirlər. Gah damardan qan alırlar və onu üzə vururlar, üzdə iltihab yaranmasına səbəb olurlar. Gah buruna dolğu vurub əyrisini düzəldirlər, 6 aydan sonra yenə əyilir, yenə dolğu, yenə əyilir, axırda burun deformasiya olub dönüb olur Qarqamelin burnu. Gah yanaqlara gel vurub qadınları Malefisentaya bənzədirlər, gah dodaqları şişirdib ördək Donalda oxşadırlar, gah da çənəni itiləyib qadını edirlər kapitan Cek. Prosedur o qədər çoxdur ki, 20 yaşında başlasan 60 yaşına kimi hamısını çatdırıb etdirə bilməzsən.

Özünə bir səhifə açıb müştəri tutan dr.doktorlardan uzaq gəzin, əgər simanızda bəyənmədiyiniz yer varsa bunun üçün peşəkar həkimə müraciət edin, ölkəmizdə xaricdə kosmetologiya oxuyan kifayət qədər çox peşəkar həkim var. Qonşu ökələrdə həkimlər bu işi icra edə bilmək üçün ali məktəbdə təhsilini alırlar, müvafiq nazirliyin sertifikasiyasından keçirlər. Bizdə dr.kosmetoloq olmaq üçün bir-iki seminar, 1 A4 kağızına çıxarılmış əsassız diplom, bir də yaxşı piar olmalıdır. Tora düşməyə hazır o qədər qadın var ki...

## Rusiyalı ekspert:

# ”Azərbaycan Prezidentinin Şuşa Qlobal Media Forumundakı çıxışı strateji proqram idi”






Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”“ istiqaməti çərçivəsində hazırlanıb*

Şuşa Qlobal Media Forumunun iştirakçılarından biri olmuş Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko ”Moskva-Baku” portalına müsahibəsində Azərbaycan Prezidentinin media forumundakı çıxışının niyə proqram sayıla biləcəyini izah edib, həmçinin, Azərbaycan dövlət başçısının Rusiya ilə münasibətlərlə bağlı mövqeyinə münasibət bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İqor Yuryeviç, İlham Əliyevin Şuşa Qlobal Media Forumunda media nümayəndələri ilə ünsiyyəti və prezidentin cavabları barədə təəssüratlarınız necədir?***

- Məncə, Şuşa Qlobal Forumu ötən həftənin ən mühüm beynəlxalq tədbirlərindən birinə, əlamətdar hadisəyə çevrildi. Forumun keçirilməsi Azərbaycanın siyasi, diplomatik, informasiya təntənəsi oldu.

Dövlət başçısı regional və beynəlxalq vəziyyətin dərin təhlilini, rəqəmlərə, faktlara mükəmməl yiyələnməni, strateji hədəflərin müəyyən edilməsini nümayiş etdirdi. İlham Əliyev unikal lider, siyasətçi və diplomat kimi üstün keyfiyyətlərini bir daha göstərdi.

Detallara fikir verməmək mümkün deyil - Prezident Əliyev forum iştirakçıları ilə ”qalstuksuz” formatda görüş keçirdi. Liderin açıqlığını vurğulayan bu addım iştirakçıların rəğbətini qazanmaya bilməzdi. Bu, birbaşa, səmimi söhbət idi. Bundan əlavə, dövlət başçısı 3 dildə- Azərbaycan, ingilis və rus dillərində sualları cavablandırdı. İlham Heydəroviç dünyanın aparıcı liderlərindən biri olduğunu bir daha nümayiş etdirdi. Sakit, özünə güvənən, söhbəti səmimi tərzdə aparan, intellektin dərinliyini nümayiş etdirən. Problemlərin, mövqeyin, fikirlərin ani, aydın şəkildə təqdim edilməsi Azərbaycan Prezidentini çox güclü şəkildə fərqləndirir. İstisnasız olaraq bütün forum iştirakçıları çox təsirləndilər.

Əliyevin çıxışını əsas nitq adlandırmaq olar- qaldırılan məsələlərin dairəsi o qədər geniş idi, dövlət siyasətinin yaxın gələcək üçün hədəfləri müəyyən olundu, strateji baxış öz əksini tapdı.

Mən məhz bu mövzuda sual verdim - Azərbaycanın gələcək inkişafı strategiyası, prezidentin gördüyü əsas prioritetlər haqda. Prezident cavab verdi ki, əsas məqsəd regionda sülh və təhlükəsizliyin bərqərar olması, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması yolu ilə, Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasıdır. Dövlət başçısı qeyd edib ki, Bakı dünya iqtisadiyyatının tendensiyalarını başa düşür və buna uyğun olaraq qeyri-neft sektorunun davamlı inkişafına, bərpa olunan enerjinin inkişafına arxalanır. Axı təbii sərvətlər öz həcmlərində məhduddur. Və bu çox sağlam yanaşmadır. Gələcəyin iqtisadiyyatı üçün zəmin yaratmaq bu gün gələcəyin çağırışlarına hazırlaşan və dövlətinin uğurlu olmasını istəyən liderlərin əsas vəzifələrindən biridir. Prezident Əliyev zamanın nəbzini yaxşı bilir, indiki və gələcək çağırışlara cavab verir, keçmişin təcrübəsinə əsaslanan siyasət aparır. Bu baxımdan, prezident Qarabağı ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsi kimi görür.

İlham Əliyev beynəlxalq təlatümlər fonunda öz dövlətini irəli aparan, qabaqcadan düşünən, bütün riskləri hesablayan və əsl müstəqil lider olan nadir liderdir. Hansı ki, bizim dövrümüzdə, xüsusən beynəlxalq münasibətlər sisteminin dəyişdiyi indiki beynəlxalq şəraitdə çox nadir hallarda rast gəlinir.

Həmçinin, Azərbaycanın müasir siyasətinin prioritet istiqamətlərindən biri də Azərbaycan Silahlı Qüvvələrinin daha da müasirləşdirilməsi, ən müasir silahlarla təchiz edilməsi, səmərəliliyinin artırılmasıdır.

Mən daha bir detalı vacib hesab edirəm: prezident qeyd etdi ki, hər bir insan kimi o, ədalətsizliyi görən yerdə reaksiya verir və Azərbaycan hakimiyyəti insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün hər şeyi edəcək. Dövlət başçısının belə yanaşması ölkəsinin rifahının qayğısına qalanda, ”xalqın yanına gedəndə”, birbaşa təmas vasitəsilə sakinlərin arzularını öyrənəndə çox vacibdir.

Yeri gəlmişkən, Ermənistanda həm sosial şəbəkələr seqmentində, həm də rəsmi Yerevanda mediaforuma kifayət qədər əsəbi reaksiya verilib. Baş nazir hətta ötən gün ”cavab” olaraq mətbuat konfransı keçirmək qərarına gəlib.

Forum bir daha Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirməyə və öz nöqteyi-nəzərini dünyanın onlarla ölkəsinin media ictimaiyyətinə çatdırmağa imkan verdi, xüsusən də informasiya müharibəsi və şərhlər uğrunda mübarizə fonunda.

Forumun sonunda İlham Heydəroviçin yanıma gəlib məni salamlaması və əlimi sıxması çox xoş idi. Bu, həm də bir jestdir. Forum iştirakçıları isə ona yaxınlaşmağa, prezidentlə selfi çəkdirməyə, ünsiyyət qurmağa başladılar. Bu sadə ünsiyyət həm də siyasətçinin səviyyəsinin göstəricisidir.

Media forumunun əla təşkilinə hamı diqqət yetirdi. Bu yaxınlarda istifadəyə verilmiş gözəl beşulduzlu ”Şuşa” mehmanxanasında keçirildi. Onun separatçıların ”parlament” qurmaq istədikləri yerdə tikilməsində müəyyən simvolizm var.

Biz də gördük ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərinin, 30 illik işğalın nəticələrinin bərpası istiqamətində nə qədər fəal iş aparılır. Şuşada bərpa işləri aparılır, çoxlu sayda tarixi abidələr bərpa olunub, həm müsəlman, həm də xristian dini ziyarətgahları bərpa olunur. ”Zəfər yolu” ilə Şuşaya gedəndə biz genişmiqyaslı infrastruktur dəyişikliklərinin şahidi olduq. İşğaldan azad edilmiş ərazilərin bərpasının nəticələri, Azərbaycan torpaqlarının işğaldan dərhal sonra necə göründüyünü və son zamanlar nə qədər dəyişdiyini müqayisə edəndə görünən təzad həm də Azərbaycanın uğurudur.

***- İlham Əliyev beynəlxalq təlatümlər fonunda Azərbaycan-Rusiya münasibətlərinin vəziyyəti və Müttəfiq Əməkdaşlıq Bəyannaməsinin icrası ilə bağlı sualı da cavablandırıb...***

- Təbii ki, İlham Heydəroviç burada bir daha bütün nöqtələri irəli çəkdi və bu iki dövləti sıxışdırmağa çalışanları yerinə qoydu. Buğdanı samandan ayırdı. Bəli, biz bəzən ölkələrimizin mövqelərində müəyyən fərqlər görürük, iki dövlətin mətbuatında bir-birinə münasibətdə müxtəlif növ ”nəşrlər” də görürük. Əliyev bunu Azərbaycan-Rusiya dialoqunun və siyasi münasibətlərinin gündəmini müəyyən etməyən ”kobudluq” adlandırıb. Bu, çox mühüm bəyanatdır.

İlham Əliyev qeyd edib ki, ikitərəfli əməkdaşlıq siyasəti, digər məsələlərlə yanaşı, həm də iki lider arasında mövcud olan yaxşı münasibətlər, Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamə ilə müəyyən edilir. Və heç bir ”kobudluq” münasibətlərdə əməli siyasətə təsir edə bilməz.

Bir il əvvəl Azərbaycan Prezidenti və Rusiya lideri tarixi Bəyannaməni imzalayanda olduğu kimi, bu gün də, indiki çətin məqama baxmayaraq, İlham Əliyev bir daha nümayiş etdirdi ki, onun qəbul etdiyi bütün qərarlar uzunmüddətli strategiyaya, vəziyyəti dərk etməyə və Azərbaycanın milli maraqları üçün faydalara əsaslanır. İlham Heydəroviç forumda Rusiya haqqında çox müsbət danışdı. Deməli, Rusiya-Azərbaycan münasibətlərinin gələcəyinin müsbət olacağı şübhəsizdir.

***- Prezidentin forumda səsləndirdiyi daha bir bəyanat ondan ibarətdir ki, Ermənistan qarşıdurma ərazisinə çevrilir, Azərbaycan isə getdikcə əməkdaşlıq ərazisi statusunu artırır...***

- Doğrudan da, Ermənistanda təlatümlər aradan qalxmır. Bu gün Ermənistan Qərb tərəfindən Rusiyaya qarşı manipulyasiya, Cənubi Qafqazda sabitliyin pozulması, təhlükəsizlik arxitekturasını sarsıtmaq və təxribatlar üçün alət kimi istifadə olunur.

Digər və tamamilə obyektiv nümunə Azərbaycandır ki, o, Cənubi Qafqazın təhlükəsiz sülh və əməkdaşlıq regionuna çevrilməsi üçün hər şeyi edir. Təəccüblü deyil ki, prezident İlham Əliyev bir vaxtlar ikitərəfli danışıqlar üçün Rusiya və ABŞ tərəfindən dəfələrlə Bakının seçildiyi haqda misallar çəkdi.

Bundan başqa, prezident Azərbaycanın Qarabağ iqtisadi rayonunun həmin hissəsində öz siyasi və iqtisadi ambisiyalarını reallaşdırmaq üçün sadə insanlardan ”girov” kimi istifadə edən separatçı rejimin rəhbərlərinin girovluğuna çevrilmiş erməni etnik azlığı ilə bağlı prosesləri bir daha çox aydın təsvir etdi. Əliyev mütəmadi olaraq qeyd edir ki, Azərbaycan hakimiyyəti Qarabağda yaşayan erməniləri öz vətəndaşları kimi qəbul edir. Tarixi prosesin gedişi qaçılmazdır və bu və ya digər şəkildə olacaq. İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan və Ermənistan arasında nizamlanma Cənubi Qafqazın çiçəklənməsinə aparan yoldur. Axı beynəlxalq investorlar da investisiya qoymazdan əvvəl gələcək baxımından bu investisiyaların nə dərəcədə təhlükəsiz olacağına baxırlar. Yenə də açıq şəkildə prezident bir daha ona diqqət çəkdi ki, Zəngəzur dəhlizini heç kim ləğv etməyib və o, mütləq həyata keçiriləcək. Azərbaycan prezidenti yenə siqnal verdi: Bakı Ermənistanla sülhə hazırdır və bu gündəliyi irəli aparır, bizə sülh müqaviləsi lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

# Həkim açıqladı: Kompyuter arxasında çox işləyənlər, diqqətli olun!



Həkim terapevt Abbas Bağırov kompyuter arxasında çox işləməyin insan bədəninə vurduğu zərər barədə SİA-ya danışıb: "Hazırkı dövrdə insanların həyatının və vaxtının mühüm hissəsini kompyuterlə keçirmə zərurəti yaranıb. İnformasiya texnologiyalarının sürətli inkişafı, yeniliklərin yaranması və bu yeniliklərə insanlığın maraq göstərməsi, yeni proqramlar, tətbiqlər çərçivəsində işlərini yenidən qurub irəli aparması baxımından zərurət yaranıb. Eyni zamanda, iş rejimim, iş vaxtının, görülən işlərin tənzimlənməsi baxımından kompyuter və internetsiz həyat mümkün deyil. Tədrisin aparılması proseslərində də kompyuter və internet texnologiyaları çox mühüm rol oynayır. Buna görə də kompyuter vasitələrinə həyati tələblər çoxalmaqdadır.

Qeyd etmək lazımdır ki, kompyuterdən istifadənin davamlı və uzun müddət olması insan orqanizmində bir neçə patologiyalara yol açır ki, bu da sağlamlığa ciddi zərər vuran, insan orqanizminin əmək fəaliyyətinin təhdidinin yaranmasına səbəb olan bir faktorlar kimi ortaya çıxır. Məsələnin mahiyyəti bundadır ki, kompyuterdə işləyən bütün insanlar əməyin nizamlanması şərtlərini mütləq qorumalıdırlar. Məsələn, kompyuterdən istifadə iki saatdan artıq davam etdikdə gözlər yorulur, gözlərin yorulması fonunda beyin-qan dövranında pozuntular yaranır, beyin-qan dövranının pozulması sinir sisteminin, insan orqanizminin, sinir sistemindən periferik əzələlərə gələn siqnalların intensivliyinin artmasına və ümumi yorğunluğuna səbəb olur. Kompyuterin arxasında çalışarkən istər-istəməz boyun və onurğa sütunu əzələlərində gərginlik vəziyyəti yaranır, bu gərginlik uzun müddət davam etdikdə əzələlərin dartılması fonunda fəqərəarası sahələr yavaş-yavaş kiçilir, daralır və fəqərəarası disklərin get-gedə zədələnməsinə gətirib çıxarır. Bu da dayaq hərəkət sistemi üçün çox ciddi patoloji siqnaldır, ciddi xəstəliklərin əmələ gəlməsinə yol açır. Əsasən, boyun, bel fəqərələrində yırtıqların yaranması və digər degenerativ-destruktiv proseslərin yaranması ilə müşayiət olunan xəstəliklər baş verir.

Kompyuter eyni zamanda, göz xəstəliklərinin yaranması üçün böyük təkanverici amil kimi özünü göstərir. Uzun müddət iş zamanı monitora davamlı baxış zamanı şübhəsiz ki, hər bir monitor və elektron sistemdə elektro-maqnit şüaları xaric edilir və gözə zədələyici təsir göstərir. Göz bəbəklərinin, gözün bağlarının, hərəki sinirlərinin gərginləşməsinə, bunun fonunda göz yaşı kanallarının spazmına, gözün çox yaşarmasına, göz-burun keçəcəyinin get-gedə daralmasına səbəb olur ki, bu da görmə funksiyasının pozulması ilə nəticələnən patoloji hallara gətirib çıxara bilir. Qeyd etdiyim kimi, ümumi və psixi yorğunluq fonunda, dolayısı ilə ürək-qan-damar sistemində, qan təzyiqinin düşməsi və ya qalxması kimi halların da baş verməsi mümkündür. Əllərdə qıcıqlanma, gözlərdə yaşarma, göz qızarması, bel, boyun, baş ağrıları kimi hallar ortaya çıxarsa tənəffüs etmək və kompyuterlə təmasa fasilə vermək lazımdır. Eyni zamanda, kompyuterin arxasında davamlı oturmaq süni kökəlməyə gətirib çıxara bilir. Kökəlmə prosesində qan damarlarında dəyişikliklərə, onların daralmasına səbəb olan bir neçə amillərin təsirinə məruz qalaraq növbəti patoloji proseslərin əmələ gəlməsinə yol açır".

## Bəs kompyuterdə çox işləyən insanlar sağlamlığının qeydinə necə qalmalıdır?

"Kompyuterlə çalışarkən minimum 50, maksimum 70 santimetr məsafədə oturub nə çox isti, nə çox sərt yerdə olmama şərti ilə bədən konfiqurasiyasına uyğunlaşdırılmış şəkildə komyuter arxasında işləri davam etdirmək lazımdır. Əgər bu şərtlərə - müvazinətin saxlanılmasına, bədən simmetriyasının qorunmasına, kompyuterlə çalışarkən fikir verilməzsə, bu, təbii ki, bir müddətdən sonra bədənin yorulması və xəstələnməsinə səbəb olacaqdır. Buna görə də 2 saatlıq işdən sonra fasilə verilməli, oynaq sisteminin hərəkəti, tənəffüs orqanlarının sinxronizasiyası, əllərin, qolların, bədən müvazinətinin müxtəlif vəziyyətlərdə sərbəstləşməsinə təmin yaradan hərəkətlər etmək lazımdır. Müxtəlif fiziki hərəkətlər etmək lazımdır, kompyuter masasının funksionallığından və düzgün hündürlüyündən əmin olmaq lazımdır. Komyuterdən istifadə edən hər kəs bədənində d vitamini səviyyəsini də yoxlatmalıdır. Çünki komyuterdən uzun müddətlik istifadə bədəndə d vitamini azalmasına, qalxanabənzər vəzinin funksiyasının pozulmasına, sümük sisteminin, dayaq-hərəkət sisteminin pozulmasına, bədəndə digər metabolitik proseslərin pozulmasına səbəb olur. Kompyuterdən istifadə edən insanlar bədəni sıxan, sintetik heç bir geyimdən istifadə eyməməli, təbii materialdan və boş paltarlar geyinməlidir. Bəzi hallarda kompyuter arxasında əyləşən insanlar siqaret və kofedən çox istifadə edirlər. Bu da özlüyündə bir müddətdən sonra bədənə öz zərərini vuracaqdır", - həkim vurğulayıb.

***Aysel Naibli***

## "Neftçi" fransız futbolçu transfer etdi

Bakının "Neftçi" futbol klubu növbəti transferini reallaşdırıb. Klubun rəsmi saytında yer alan məlumatda deyilir ki, fransalı futbolçu Ervin Koffi ilə 2 illik müqavilə bağlanıb.

28 yaşlı sağ cinah müdafiəçisi "Neftçi"də 99 nömrəli formanı geyinəcək. Ervin Koffi Fransanın "Şatoru" (2015), "Loryan" (2015-2018), "Pau" (2020-2023), Yunanıstanın "Anortosis" (2018-2020) və "Olimpiakos" (Nikosiya, 2020) klublarında çıxış edib. Əslən Kot-d'İvuardan olan Koffi 2016-cı ildə bu ölkənin U-23 milli komandasının heyətində 1 oyun keçirib.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Atalıq məzuniyyəti ataların haqqıdır



Ötən ildən etibarən ödənişli atalıq məzuniyyətinin verilməsi qanunvericiliyə daxil edilib. Həyat yoldaşı doğuşa və hamiləliyə görə məzuniyyətdə olan şəxslər doğum ərəfəsində ananın doğuş üçün müraciət etdiyi xəstəxanadan arayış alır, həmin tibbi arayışı iş yerinə təqdim edir. Sözügedən arayış əsasında iş yeri ata namizədlərinə 14 gün ödənişli məzuniyyət verir. Məzuniyyət hüququndan istifadə edən atanın məzuniyyət pulu isə standart qaydada ödəniləcək. Bu imtiyaz bir uşaq üçün nəzərdə tutulmur, atalıq namizədi hər bir övlad üçün bu hüquqdan istifadə edə bilər.

Qanunlarımıza görə, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü məzuniyyət verilir. Bu məzuniyyətin 70 günü doğuşdan öncəki, 56 günü isə doğuşdan sonrakı müddət üçün nəzərdə tutulub. Doğuş çətin olduqda, 2 və daha çox uşaq doğulduqda, doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətinə qədər uzadılır. Qeyd edək ki, bu məzuniyyət müddəti ərzində qadın işlədiyi müəssisədən əməhaqqını tam şəkildə alır.

Kişilərə atalıq məzuniyyəti vermək alqışlanacaq bir qərardır, təbii ki, ödənişli olması baxımından. Ötən ilədək bu məzuniyyət işçinin öz hesabına verilirdi. Təbii ki, bir çox işçi bu hüququndan imtina edirdi. Axı ata bu müddət ərzində ailəsinin maddi təminatını da gerçəkləşdirməlidir. Xüsusilə ailə üzvlərinin sayının artdığı bir dövrdə ataların məzuniyyətinin ödənişsiz olması doğru deyildi. Axı ata bu dövr ərzində ailəsinə və yeni doğulmuş körpəsinə daha çox pul xərcləməli olur. Körpənin ehtiyacları, ananın ehtiyacları üstəgəl evin digər problemləri və qayğıları. Bütün bu problemlərin içindən isə mütləq maddi cəhətdən təminatlı olan ata çıxa bilər. Məhz buna görə də kişilərin bir çoxu məzuniyyət hüququndan imtina etmiş olurdu.

Qanunun atalara ödənişli məzuniyyət verməsi qadına və doğulacaq körpəyə müsbət təsir edir. Qadın hamiləlik dövründə olduqca həssas olur, özünü tək-tənha hiss edir, doğuş prosesindən qorxur. Körpə isə ana bətnində bütün bunları hiss edir, bu da onun da səhhətinə pis təsir edir. Döl hər şeyi anlayır və anasından gördüyü nəvazişi atasından da duymaq istəyir. O hələ doğulmamış ola bilər, amma canlıdır, ətrafda olanları hiss edir. Ona görə də, həm doğuşdan öncə, həm də sonra ata ananın yanında olmalıdır, bu həm körpənin, həm də ananın sağlamlığı üçün önəmlidir. Buna görə ataların ödənişli məzuniyyət haqqı ailənin həmin dövrü daha rahat keçirməsinə verilmiş dəstəkdir.

Kanadada valideynlik məzuniyyəti 50 həftədir. Bu dövr valideynlər tərəfindən hər birinə 25 həftə olmaqla bölünə bilər. Finlandiya qanunlarına görə, ana və ata eyni vaxtda 18 gün məzuniyyət götürə bilərlər. Portuqaliyada valideynlərin 22 həftə, Cənubi Koreyada 17, Belçikada 15 gün, Fransada 2 həftə, Almaniyada 2 həftə, İsveçrədə 2 həftə, Türkiyədə 1 həftə kimi müddətə ödənişli məzuniyyət haqqı var. ABŞ dünyada ailələrə ödənişli analıq məzuniyyəti verməyən 7 ölkədən biridir. Digər 6 ölkə isə Marşal adaları, Mikroneziya Federativ Ştatları, Nauru, Palau, Papua Yeni Qvineya və Tonqadır.

***Lalə Mehralı***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000